


WILDLIFE CONSERVATION AND ANIMAL PROTECTION — VƏHŞİ TƏBİƏTİN QORUNMASI VƏ HEYVANLARIN MÜHAFİZƏSİ

EDUCATION — TƏHSİL

ADVOCACY AND PUBLIC AWARENESS — TƏŞVİQAT VƏ İCTİMAİ MAARİFLƏNDİRMƏ

TREE PLANTING AND PROTECTION OF GREENERIES — AĞACƏKMƏ VƏ YAŞILLIQLARIN MÜHAFİZƏSİ

COASTAL CLEANUP EVENTS — SAHİLYANI TƏMİZLİK AKSİYALARI

INNOVATIVE DIALOGUE: FORUMS, CONFERENCES, SPECIAL EVENTS — İINNOVATİV DİALOQ: FORUMLAR, KONFRANSLAR, XÜSUSİ TƏDBİRLƏR

IDEA

International Dialogue for Environmental Action

# ONE EARTH, ONE FUTURE!

ACTIVITY REPORT 2017-2019

FƏALİYYƏT HESABATI 2017-2019



IDEA

International Dialogue for Environmental Action

## MESSAGE FROM THE FOUNDER

It has been three years since we last briefed you on our work dedicated to saving and protecting the natural treasures of Azerbaijan and the wider Caucasus region. Hereby, we present to you the report of our activities in 2017-2019, including both updates on our regular projects and information on new initiatives launched in partnership with our local and international partners.

Indeed, any action to protect the planet and build its sustainable future on any level is ultimately a part of the global effort. This is exactly what we had in mind when we established the International Dialogue for Environmental Action on 12 July 2011. IDEA has set forth an ambitious mission to preserve and restore our biodiversity and ensure our sustainable future through environmental education and awareness, conservation of precious and endangered species, promotion of eco-friendly production and consumption patterns, protection and expansion of green spaces, and fight against pollution.

Today, IDEA is the champion of the green movement in Azerbaijan, a regional hub for environmental activities and a reliable partner to prominent international organizations such as UNEP, FAO, UNDP, IUCN and WWF. In this respect, I am especially grateful for the support of thousands of young volunteers and concerned individuals, who were with us from the beginning to make this endeavor a success.

The past three years have been very challenging for the world, as we have witnessed more alarming environmental trends and the ensuing global challenges. Natural disasters caused by climate change are becoming more frequent and more devastating. They leave a heavy human toll; they harm our biodiversity and food security. Plastic waste is gradually growing and is set to outweigh fish in our oceans and seas by 2050. While only 0.5% of the Earth's water is accessible for all our fresh water needs, people are polluting water faster than nature can recycle and purify its rivers and lakes.

These global issues affect everyone. Irrespective of geography or identity, addressing them is a matter of survival.

Over four years passed since the world leaders endorsed the 2030 Agenda for Sustainable Development - a plan for people, planet and prosperity. The Agenda is the universal way forward for solving all of humanity's existential challenges.

However, achieving the Global Goals is not only the responsibility of governments and organizations. Each and every one of us must be a part of the universal effort by protecting the environment and living sustainably.

Join IDEA to save the ONE EARTH
we have and secure
our ONE FUTURE!




IDEA

International Dialogue for Environmental Action

# TƏSİSÇİNİN MÜRACİƏTİ

Azərbaycan və bütöv Qafqaz regionunun təbii sərvətlərinin qorunub saxlanmasına həsr olunmuş fəaliyyətimizə dair son məruzəmizdən iki il keçib. Bununla, 2017-2019-cu illərdə görülmüş işlər, o cümlədən davamlı layihələrimiz, yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən yeni təşəbbüslərimiz haqqında hesabatı diqqətinizə təqdim edirik.

Şübhəsiz ki, planetimizin qorunması və onun dayanıqlı inkişafının təmin edilməsinə yönəlmiş istənilən fəaliyyət, atılmış hər bir addım nəticə etibarı ilə qlobal səylərin bir hissəsini təşkil edir. Məhz bu fikrə əsaslanaraq, 12 iyul 2011-ci il tarixində biz IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxaq dialoq) İctimai Birliyini təsis etdik. Təşkilatımız ekoloji təhsil və maarifləndirmə, nəsli kəsilmək təhlükəsi altında olan dəyərli növlərin mühafizəsi, məsuliyyətli istehsal və istehlak modellərinin təşviqi, yaşıllıqların qorunması və genişləndirilməsi və çirklənməyə qarşı mübarizə tədbirləri vasitəsilə biomüxtəlifliyimizin qorunub saxlanması, dayanıqlı inkişafımızın təmin edilməsi kimi iddialı bir missiyaya qədəm qoydu.

Hazırda IDEA Azərbaycanda “yaşıl” hərəkatın aparıcı qüvvəsi, ətraf mühitin mühafizəsi üzrə vacib regional mərkəz, eləcə də UNEP, FAO, UNDP, IUCN və WWF kimi mötəbər beynəlxalq təşkilatların etibarlı tərəfdaşıdır. Bu xüsusda, uğurlu nəticələrin əldə edilməsi üçün ilk gündən bizi dəstəkləmiş minlərlə gənc könüllü və biganə qalmayan digər insanlara xüsusi minnətdarlığımızı bildirmək istərdik.

Ətraf mühitdə şahid olduğumuz artan mənfi tendensiyaları və bunlardan irəli gələn yeni qlobal çağırışları nəzərə alaraq, ötən üç ilin dünya üçün olduqca çətin illər olduğunu demək olar. İqlim dəyişikliyi səbəbindən baş verən təbii fəlakətlərin tezliyi və dağıdıcı təsiri sürətlə artır. Bu fəlakətlər insan itkisinə gətirib çıxarır, biomüxtəlifliyimiz və qida təhlükəsizliyimizə zərər vurur. 2050-ci il üçün dəniz və okeanlarda plastik tullantıların həcminin dəniz canlılarından daha çox olacağı gözlənilir. Yer kürəsinin su ehtiyatlarının yalnız 0.5 faizindən şirin su tələbatlarımız üçün istifadə edə bildiyimiz halda, insanlar çayları və gölləri onların təbii şəkildə təmizlənə biləcəyindən daha sürətlə çirkləndirir.

Bu qlobal problemlər hamıya təsir edir. Coğrafi məkan və ya mənsubiyyətindən asılı olmayaraq hamının onların həllində iştirak etməsi həyati əhəmiyyət kəsb edir.

İnsanlar, planet və rifah naminə fəaliyyət planı olan Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin dünya liderləri tərəfindən qəbul edilməsindən 4 il keçir. Gündəlik bəşəriyyətin bütün problemlərinin həlli üçün qlobal yol xəritəsidir.

Lakin, Qlobal Məqsədlərə nail olunması yalnız hökumət və təşkilatların məsuliyyəti deyil. Hər birimiz ətraf mühiti qorumaqla və həyatda dayanıqlı davranmaqla bu qlobal hərəkatın bir hissəsi olmalıyıq.

## IDEA-ya qoşulun. Yeganə planetimiz var, gəlin onu xilas edək, gələcəyimizi təmin edək!



## ABOUT THE FOUNDER

The founder and head of IDEA Leyla Aliyeva is an Azerbaijani artist, poet and cultural figure as well as a social and environmental activist.

Leyla Aliyeva was born on 3 July 1985 in Moscow. She studied both in London and Moscow and gained a Master's Degree from the Moscow State Institute of International Relations (MGIMO) in 2008. She remained the President of the MGIMO Azerbaijan Club until 2010.

In May 2007, she was appointed as the representative of the Heydar Aliyev Foundation in the Russian Federation and, in 2011, became the Vice-President of the Foundation.

In December 2007, Leyla Aliyeva founded "BAKU" magazine in Moscow; the English-language version of the magazine was launched in London in October 2011.

On 08 May 2008, on the 16th anniversary of the occupation of Shusha, Leyla Aliyeva launched an international campaign called «Justice for Khojaly» aimed at raising the global community's awareness of the Nagorno Karabakh conflict and the Khojaly Genocide.

Also, in May 2008, she became the General Coordinator of the OIC Youth Forum for Intercultural Dialogue and, in April 2009, she was elected Chairperson of the Azerbaijani Youth Organization of Russia – AMOR, which supports Azerbaijani students and young people living in the Russian Federation.

On 12 July 2011, Leyla Aliyeva founded the International Dialogue for Environmental Action (IDEA), with the vision to protect the rich nature of Azerbaijan and the greater Caucasus region, and to preserve it for future generations by promoting public awareness and action on environmental challenges.

On 25 May 2015, she was designated as Goodwill Ambassador of the Food and Agriculture Organization of the United Nations (FAO).

Leyla Aliyeva is a recipient of numerous awards and honors, including the Azerbaijani state medal "Taraggi" (Progress), a special Certificate and Commendation from the United Nations, and "Key To Life" award from the New York-based Children's Cancer & Blood Foundation in 2011; the medal "For Merits Before the Astrakhan Oblast" in 2012; the Saint Princess Olga Medal of the 3rd degree, the medal «For Services to Volgograd Region», and the special international honor for 'Environmental Protection' from the steering committee of INEPO-Eurasia in 2013; the Pushkin Medal of the Russian Federation in 2015, a diploma of professor emeritus of the Moscow State University of Humanities and Economics as well as «Medal of Merit» from Moscow State International Relations Institute's Scientific Councilin 2016.

She has twin sons and a daughter.

## TƏSİSÇİ HAQQINDA

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva azərbaycanlı rəssam, şair və mədəniyyət xadimi, eləcə də ictimai və ekoloji fəaldır.

Leyla Əliyeva 3 iyul 1985-ci ildə Moskva şəhərində anadan olmuşdur. O, Londonda və Moskvada təhsil almış, 2008-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MGIMO) magistr dərəcəsini əldə etmişdir. 2010-cu ilə qədər MGİMO-da Azərbaycanlılar Klubunun sədri olub.

2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, 2011-ci ildən isə Fondun vitse-prezidenti vəzifəsini tutur.

2007-ci ilin dekabr ayında Moskvada "Baku" jurnalını təsis etmiş, 2011-ci ilin oktyabr ayında Londonda jurnalın ingilis dilli versiyasını təqdim etmişdir.

8 may 2008-ci il tarixində Şuşa şəhərinin işğalının 16-cı il dönümündə başlanmış, Xocalı soyqırımı və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyan "Xocalıya Ədalət" beynəlxalq kampaniyasının təşəbbüskarıdır.

2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, 2009-cu ilin aprelindən Rusiyada yaşayan azərbaycanlı tələbələrə dəstək göstərən Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsində çalışır.

12 iyul 2011-ci il tarixində, Azərbaycan və Cənubi Qafqazın zəngin təbiətinin mühafizə edilməsi, ekoloji məsələlərlə bağlı ictimai maarifləndirmə və fəallığın artırılması və bununla təbiətimizin gələcək nəsillər üçün qorunub saxlanılması məqsədi ilə, Leyla Əliyeva Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq - IDEA İctimai Birliyini təsis etmişdir.

25 may 2015-ci il tarixində Leyla Əliyeva BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı səfiri adına layiq görülmüşdür.

Leyla Əliyeva bir çox mükafat və fəxri adlara layiq görülmüş, o cümlədən 2011-ci ildə Azərbaycan Respublikasının "Tərəqqi" medalını, BMT-nin sertifikat və xüsusi vəsiqəsini, Nyu-Yorkda yerləşən Uşaq Xərçəng və Qan Fondunun "Key to life" fəxri mükafatını, 2012-ci ildə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" mükafatı, 2013-cü ildə III dərəcəli Müqəddəs Mələksimə "Knyaginya Olqa" ordenini, "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı, İNEPO-Avrasiya idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi beynəlxalq şərəf mükafatını, 2015-ci ildə Rusiya Federasiyasının "Puşkin" medalını, 2016-cı ildə Moskva Dövlət Humanitar İqtisad Universitetinin fəxri professoru diplomunu və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun «Xidmətlərə görə» medalını almışdır.

İki oğlu, bir qızı var.





# CONTENTS


12 **WILDLIFE CONSERVATION AND ANIMAL PROTECTION**
- MARINE CONSERVATION
- BISON REINTRODUCTION PROJECT
- CAUCASIAN LEOPARD
- IDEA ANIMAL CARE CENTER (IACC)
- MOBILE VETERINARY CLINICS
- WILDLIFE CRIME HOTLINE 1113
- URBAN ECOLOGY

30 **EDUCATION**
- ECOLOGICAL LABORATORY FOR KIDS
- THE WORLD'S LARGEST LESSON
- IDEA'S ANNUAL SUMMER CAMPS
- IDEA ECO SCOUT CLUB
- ECO SCOUT CAMP
- INSPIRING GREEN MINDS
- GREEN CONVERSATION CLUB
- THE KURA BOX

50 **ADVOCACY AND PUBLIC AWARENESS**
- LIVE LIFE EXHIBITION
- ECO CINEMA
- EARTH HOUR CAMPAIGN
- WORLD CARFREE DAY CELEBRATION
- SNAKE IDENTIFICATION POSTERS
- DOCUMENTARY SERIES ON NATIONAL PARKS
- ENVIRONMENTAL POSTER CONTEST
- SDG STANDS IN THE BAKU BOULEVARD
- OUTDOOR GYM IN THE BAKU BOULEVARD
- FOOTBALL MASTER-CLASS IN SUPPORT OF SDGS
- RECYCLING BINS
- PROMOTING SDGS WITH FAO
- FIRST MARINE HOPE SPOT IN THE CASPIAN
- AWARENESS CAMPAIGN ON FORESTS
- TRASHTAG CHALLENGE IN AZERBAIJAN
- CLOTHING DONATION BINS INSTALLED IN BAKU
- SEVEN WONDERS OF AZERBAIJAN
- BATTERY RECYCLING BINS
- HEALTHY AND RESPONSIBLE FOOD CONSUMPTION

92 **TREE PLANTING AND PROTECTION OF GREENERIES**
- "NO TREE CUTTING!" PROGRAM
- TREE PLANTING EVENTS
- "SCHOOL GARDENS" PROJECT
- "RESTORE THE GREENERIES" PROGRAM
- "FRUIT GARDENS" PROJECT
- "OUR YARD" PROJECT

108 **COASTAL CLEANUP EVENTS**
- ANNUAL BEACH CLEANUPS
- KURA RIVER CLEANUPS
- CLEANUP EVENT IN THE CITY OF GANJA

118 **INNOVATIVE DIALOGUE: FORUMS, CONFERENCES, SPECIAL EVENTS**
- PARTICIPATION AT THE 4TH WORLD FORUM ON INTERCULTURAL DIALOGUE
- INTERNATIONAL ENVIRONMENTAL EXHIBITION: CASPIAN ECOLOGY
- ANNUAL WORLD FOOD DAY CELEBRATION IN AZERBAIJAN
- NATIONAL YOUTH FORUM "AGENDA 2030: FOCUS ON THE ENVIRONMENT"
- PARTNERSHIP FOR WILDLIFE RESTORATION IN THE CAUCASUS
- ESTABLISHING COOPERATION WITH UNWTO




# MÜNDəRİCAT


13 **VəHŞİ TəBİəTİN QORUNMASI Və HEYVANLARIN MÜHAFİZəSİ**
- DəNİZ əTRAF MÜHİTİNİN MÜHAFİZəSİ
- ZUBRLARIN REİNTRODUKSİYASI LAYİHəSİ
- QAFQAZ BəBİRİ
- IDEA HEYVANLARA QAYĞI MəRKəZİ
- MOBİL BAYTARLIQ KLİNİKALARI
- TəBİəTİN TəCİLİ YARDIMI QAYNAR XəTTİ 1113
- ŞəHəR EKOLOGİYASI

31 **TəHSİL**
- UŞAQLAR ÜÇÜN EKOLOJİ LABORATORİYA
- DÜNYANIN əN BÖYÜK DəRSİ
- IDEA-NIN İLLİK YAY DÜŞəRGəLəRİ
- IDEA EKO-SKAUT KLUBU
- EKO-SKAUT DÜŞəRGəLəRİ
- GəNC TəBİəTSEVəRLəRİN SəFəRBəR EDİLMəSİ
- YAŞIL SÖHBəT KLUBU
- KÜR BOĞÇASI

51 **TəŞVİQAT Və İCTİMAİ MAARİFLəNDİRMə**
- "LİVE LİFE" SəRGİSİ
- ECO CİNEMA
- "YER SAATI" KAMPANİYASI
- «ÜMUMDÜNYA AVTOMOBİLSİZ GÜNÜ» MÜNASİBəTİ İLə VELOYÜRÜŞ
- İLANLAR HAQQINDA MəLUMATLANDIRICI PLAKATLAR
- MİLLİ PARKLAR HAQQINDA FİLMLəR SİLSİLəSİ
- EKOLOJİ POSTER MÜSABİQəSİ
- BAKI BULVARINDA DİM STENDLəRİ
- AÇIQ HAVADA İDMAN MEYDANÇASI
- QLOBAL MəQSəDLəRə HəSR OLUNMUŞ FUTBOL MASTER-KLASSI
- TəKRAR EMAL QUTULARI
- QLOBAL MəQSəDLəRİN TəŞVİQİ
- XəZəR REGİONUNDA İLK ÜMİD YERİ
- MEŞəLəRLə BAĞLI MAARİFLəNDİRMə KAMPANİYASI
- AZəRBAYCANDA "TRASHTAG" MÜSABİQəSİ
- PALTAR İANə QUTULARI
- AZəRBAYCANIN 7 MÖCÜZəSİ
- BATAREYA TOPLAMA QUTULARI
- SAĞLAM Və MəSULİYYəTLİ QİDA İSTEHLAKI

93 **AĞACəKMə Və YAŞILLIQLARIN MÜHAFİZəSİ**
- **"AĞACLARIN KəSİLMəSİNə YOX!" PROQRAMI**
- **AĞACəKMə AKSİYALARI**
- **"MəKTəB BAĞLARI" LAYİHəSİ**
- **"YAŞILLIQLARI BəRPA EDəK" PROQRAMI**
- **"MEYVə BAĞLARI" LAYİHəSİ**
- **"BİZİM HəYəT" LAYİHəSİ**

109 **SAHİLYANI TəMİZLİK AKSİYALARI**
- ÇİMəRLİKLəRDə İLLİK TəMİZLİK AKSİYALARI
- KÜR ÇAYININ TəMİZLəNMəSİ
- GəNCə ŞəHəRİNDə TəMİZLİK AKSİYASI

119 **İNNOVATİV DİALOQ: FORUMLAR, KONFRANSLAR, XÜSUSİ TəDBİRLəR**
- IV ÜMUMDÜNYA MəDəNİYYəTLəRARASI DİALOQ FORUMUNDA İŞTİRAK
- AZəRBAYCAN BEYNəLXALQ əTRAF MÜHİT SəRGİSİ: CASPIAN ECOLOGY
- ÜMUMDÜNYA əRZAQ GÜNÜNÜN QEYD EDİLMəSİ
- "2030 GÜNDəLİYİNİN əTRAF MÜHİT ASPEKTLəRİ" MİLLİ GəNCLəR FORUMU
- QAFQAZDA VəHŞİ TəBİəTİN BəRPASI ÜZRə əMəKDAŞLIQ
- ÜMUMDÜNYA TURİZM TəŞKİLATI İLə əMəKDAŞLIĞIN QURULMASI

> Our common home is changing and it is the kind of change that has no upside for mankind. Everyone's actions, lifestyles and habits have an impact on the environment in one way or another.

**Leyla Aliyeva,**
Regional Partnership for Wildlife Restoration in the Caucasus,
Baku, 16 November 2018





> Planetimiz dəyişilir və bu bəşəriyyət üçün yalnız mənfi nəticəsi olan bir dəyişiklikdir. Hər kəsin hərəkətləri, həyat tərzi və vərdişlərinin ətraf mühitə müəyyən bir təsiri var.

**Leyla Əliyeva,**
"Qafqazda vəhşi təbiətin bərpası üzrə əməkdaşlıq" konfransı,
Bakı, 16 noyabr 2018-ci il



# WILDLIFE CONSERVATION AND ANIMAL PROTECTION

Since its inception, IDEA focused many of its activities on the preservation of the rich fauna of the region through projects aimed at the conservation of both terrestrial and marine species facing the threat of extinction, such as the Caucasian leopard and Beluga sturgeon.

Furthermore, the organization takes measures to protect the urban wildlife and to address the issue of homeless animals in Baku and other cities of Azerbaijan.



# VƏHŞİ TƏBİƏTİN QORUNMASI VƏ HEYVANLARIN MÜHAFİZƏSİ

Təsis olunduğu gündən etibarən, IDEA İctimai Birliyi Qafqaz bəbiri və Bölgə balıqları kimi yox olma təhlükəsi ilə üzləşən quru və dəniz fauna növlərinin qorunması məqsədilə regionun zəngin biomüxtəlifliyinin mühafizəsi istiqamətində bir sıra layihələr həyata keçirir.

Bununla yanaşı, IDEA Bakıda və Azərbaycanın digər yerlərində şəhər ekologiyasının mühafizəsi, həmçinin sahibsiz küçə heyvanları probleminin həlli üzrə vacib tədbirlər görür.

## MARINE CONSERVATION

In recent decades, wild populations of such unique fish species as Beluga sturgeon and Caspian salmon have come to the brink of extinction, largely due to effects of human activities, including pollution, poaching and overfishing. Over the past two years, IDEA has continued its partnership with the Ministry of Ecology and Natural Resources and Blue Marine Foundation (BLUE) on various projects to rehabilitate the populations of sturgeon and other valuable fish species in the Caspian Sea.

One of the measures supported by IDEA and its partners to address the problem at national level was the establishment of the Gizilagaj National Park in September 2018, comprising the Gizilaghaj State Reserve and the entire Gizilaghaj Bay. This is the first marine protected area (MPA) in the Caspian Sea and its designation will be crucial for the survival of some of the world's most endangered fish species. Declared a wetland of international importance in 2001 for its significance for migratory birds, Gizilaghaj State Reserve lies by the mouth of Kura River, which provides spawning grounds for different anadromous fish species.

IDEA, BLUE and the Ministry of Ecology and Natural Resources have studied the area to determine potential spawning locations and collaborated in an effort to sustainably breed sturgeon, which would subsequently be released in those locations. Millions of sturgeon fingerlings have been harvested and subsequently released by Khilli state fish-breeding farm in Neftchala since May 2018. IDEA is determined to further expand its efforts to increase the populations of wild fish in the Caspian Sea.



## DƏNİZ ƏTRAF MÜHİTİNİN MÜHAFİZƏSİ

Son onilliklər ərzində Bölgə balığı və Xəzər qızılbalığı kimi nadir növlərin populyasiyası insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhv olma təhlükəsi həddinə çatmışdır. IDEA son iki ildə nərəkimilərin və Xəzər dənizinə aid digər balıq növlərinin populyasiyasının bərpası üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Mavi Dəniz Fondu" (BLUE) ilə müxtəlif layihələr həyata keçirərək əməkdaşlığını davam etdirir.

Problemin milli səviyyədə həlli üçün IDEA və tərəfdaşlarının da dəstəklədiyi addımlardan biri 2018-ci ilin sentyabr ayında Qızılağac Dövlət Təbiət Qoruğunu və bütöv Qızılağac körfəzini ehtiva edən Qızılağac Milli Parkının yaradılması olmuşdur. Milli parka aid su ərazisi Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisidir ki, onun mühafizəsi dünyanın ən çox nəsli kəsilmək təhlükəsi ilə üzləşən bəzi balıq növlərinin yaşaması üçün zəruridir. Köçəri quşlar üçün vacibliyi nəzərə alınaraq, 2001-ci ildə Beynəlxalq Əhəmiyyətli Sulu Bataqlıq Yerləri Siyahısına daxil olan və Kür çayı boyunca uzanan Qızılağac Dövlət Təbiət Qoruğu müxtəlif anadrom balıq növlərini kürüləmə yeri ilə təmin edir.

Potensial kürütökmə yerlərini müəyyən etmək məqsədilə IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BLUE tərəfindən sözügedən ərazi tədqiq edilib və bu ərazilərə sonradan buraxılacaq nərəkimilərin davamlı yetişdirilməsi üzrə əməkdaşlıq qurulub. 2018-ci ilin may ayından etibarən milyonlarla nərə balığı körpələri Neftçalada yerləşən Xıllı Nərə Balıqartırma Zavodunda yetişdirilir və təbiətə buraxılır. IDEA Xəzər dənizində nərəkimilərin populyasiyasının artırılması üzrə səylərini daha da genişləndirmək niyyətindədir.



## BISON REINTRODUCTION PROJECT

The Caucasian wisent, a subspecies of wisent, which resided for centuries in Azerbaijan, has been wiped out during the historical times. The European bison (wisent) - the only extant wild ox species and the largest land mammal inhabiting ecosystems of Europe - is currently one of the most threatened species in the world.

A project by IDEA, Ministry of Ecology and Natural Resources and WWF Azerbaijan is underway to bring this keystone species back to our nature. As part of the project, a bison adaptation center has been constructed in 2017. So far, 12 bison specimens have been brought from European parks and settled in the area. After adaptation, these animals will be released into the wild. More bisons are expected to arrive in Azerbaijan for reintroduction in late 2020. Shahdag National Park will become the first place in the South Caucasus, where the bison will roam freely again after becoming extinct in the region.







## ZUBRLARIN REİNTRODUKSİYASI LAYİHƏSİ

Avropa zubrunun yarımnövü sayılan Qafqaz zubru Azərbaycanda əsrlər boyunca mövcud olmuş və sonradan tamamilə nəsli kəsilmişdir. Avropa ekosistemlərində hələ də mövcud olan yeganə vəhşi öküz növü -Avropa zubru quruda yaşayan ən böyük məməli hesab edilir və hal-hazırda dünyada məhv olma təhlükəsi qarşısında qalan növlərdən biridir.

Hal-hazırda IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu (WWF) tərəfindən zubrların yenidən təbiətimizə qaytarılması ilə bağlı layihə həyata keçirilir. 2017-ci ildə layihə çərçivəsində zubrların təbiətimizə uyğunlaşması üçün xüsusi mərkəz tikilmişdir. İndiyə kimi, 12 baş zubr Avropa parklarından gətirilərək ora buraxılmışdır. Adaptasiya dövründən sonra, həmin heyvanlar vəhşi təbiətə buraxılacaq. Reintroduksiya üçün əlavə zubrların Azərbaycana gətirilməsi 2020-ci ilin sonuna nəzərdə tutulur. Nəsli kəsildikdən sonra zubrların Cənubi Qafqazda yenidən mövcud olacağı ilk yer Şahdağ Milli Parkı olacaq.

## CAUCASIAN LEOPARD

In the past three years, IDEA continued its efforts to save the endangered Caucasian leopard, through joint measures taken in cooperation with its partners, including the Ministry of Ecology and Natural Resources of Azerbaijan, WWF Azerbaijan, ANO Caucasus Nature Center and others.

IDEA has participated in the preparation of the revised Strategy for the Conservation of the Leopard in the Caucasus Ecoregion, based on which a new national plan of action is currently being prepared. Furthermore, habitat modeling for the leopard in the Greater Caucasus, Lesser Caucasus and Talysh mountains of Azerbaijan has been already prepared by IDEA and its partners.

Based on data obtained through camera traps provided by IDEA to WWF Azerbaijan in order to identify places of habitat and number of leopards in the country, it is estimated that there are currently 15 Caucasian leopards in Azerbaijan. Several individuals, including cubs, are regularly being spotted on camera traps in Zangezur National Park, signaling hope for species.







## QAFQAZ BƏBİRİ

Son üç ildə IDEA nəsli kəsilmək təhlükəsi altında olan Qafqaz bəbirinin mühafizəsi istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, WWF Azərbaycan, "Qafqaz Təbiəti Mərkəzi" Muxtar Qeyri-Kommersiya Təşkilatı və digər tərəfdaşları ilə birgə səylərini davam etdirmişdir.

IDEA Qafqaz Ekoregionunda Bəbirlərin Mühafizəsi Strategiyasının yenidən nəzərdən keçirilməsi və hazırlanmasında iştirak edib. Hazırda bu strategiya əsasında yeni milli fəaliyyət planı hazırlanmaqdadır. Bununla yanaşı, IDEA öz tərəfdaşları ilə birgə artıq Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarında bəbirlərin yaşam areallarının modelləşdirilməsini həyata keçirib.

IDEA tərəfindən ölkəmizdə bəbirlərin sayını və məskunlaşdığı əraziləri müəyyənləşdirmək məqsədilə WWF Azərbaycana təqdim edilən foto-tələlərdən əldə edilən məlumatlara əsasən, hazırda Azərbaycanda 15 baş Qafqaz bəbirinin məskunlaşdığı məlum olmuşdur. Balalar da daxil olmaqla bir neçə fərd mütəmadi olaraq Zəngəzur Milli Parkında kameralara düşərək bu növlərlə bağlı böyük ümidlərə vəsilə olur.

## IDEA ANIMAL CARE CENTER (IACC)

IDEA Animal Care Center (IACC) equipped with a modern veterinary clinic and other facilities to provide a range of animal care services officially opened its doors on 1 March 2017. While temporarily accommodating some animals that are in desperate need for shelter and care, the Center's prime focus in addressing the street animal problem is on sterilization, disease prevention, adoptions, responsible pet ownership and humane attitudes towards animals.

IACC's veterinary clinic has facilities for both street and owned animals. All medical care for street animals is completely free of charge. The majority adult street animals brought to the Center are sterilized, vaccinated, ear-tagged and subsequently released back into their original location. The Center's adoptions section houses homeless dogs and cats, mostly younger animals and those considered to have a higher chance of being adopted.

Since that time, IACC provided veterinary care for thousands of homeless cats and dogs, found homes for over 250 pets, and organized numerous public awareness events, mostly for children and youth. IACC has held two mass sterilization campaigns featuring veterinarians from Germany, who tirelessly worked side-by-side with the Center's staff to spay or neuter, treat and help countless homeless animals.

IDEA Animal Care Center



## IDEA HEYVANLARA QAYĞI MƏRKƏZİ

Heyvanlara lazımi qayğı və xidmətin göstərilməsi üçün müasir veterinar klinika və avadanlıqlarla təchiz edilmiş IDEA Heyvanlara Qayğı Mərkəzinin 1 mart 2017-ci il tarixində rəsmi açılışı oldu. IDEA Heyvanlara Qayğı Mərkəzi qayğı və sığınacağa ehtiyacı olan aləcsız heyvanları müvəqqəti yerləşdirməklə yanaşı, sahibsiz heyvanlarla bağlı problemin həllində əsas diqqətini sterilizasiya, xəstəliklərin qarşısının alınması, eləcə də himayə, məsuliyyətli heyvan sahibliyi və heyvanlara humanist yanaşmanın təşviqinə yönəlmişdir.

Mərkəzin baytarlıq klinikası həm küçə, həm də sahibli heyvanlara xidmət göstərir. Küçə heyvanları üçün bütün xidmətlər tamamilə ödənişsizdir. Mərkəzə gətirilən yetkin küçə heyvanlarının əksəriyyəti sterilizasiya edilir, peyvəndlənir, qulaqlarına nömrələnmiş birkalar vurulur və daha sonra, məskunlaşdığı əraziyə geri qaytarılır. Himayə bölməsində öz müxtəlif xüsusiyyətlərinə görə himayəyə verilməsi daha mümkün hesab edilən it və pişiklər yerləşdirilir.

Fəaliyyətə başladığı vaxtdan etibarən, Mərkəzdə minlərlə sahibsiz it və pişiklərə tibbi xidmət göstərilib, 250-dən çox heyvan himayəyə verilib, o cümlədən gənclər və uşaqlar üçün çoxsaylı maarifləndirmə tədbirləri təşkil edilib. IDEA Heyvanlara Qayğı Mərkəzinin təşkilatçılığı ilə iki dəfə kütləvi sterilizasiya aksiyası keçirilmişdir. Aksiya çərçivəsində Almaniyadan gəlmiş baytar həkimlər Mərkəzin işçi heyəti ilə birlikdə saysız-hesabsız küçə heyvanlarının sterilizasiyası, peyvəndlənməsi, birkalanması və müalicəsi ilə yorulmadan məşğul olublar.



## MOBILE VETERINARY CLINICS

Increasing populations of homeless domestic animals may cause a wide array of health and welfare problems, both for humans and animals. It is estimated that a single female dog and its offspring may give origin to up to 67000 puppies in just 7 years. Unfortunately, many of them die early from diseases, accidents and other causes. Those that survive have only a very small chance of being rehomed and end up spending their lives on the street. Sterilization and timely veterinary care prevents all this unnecessary suffering.

Applied in many countries around the world, CVNR (Catch-Vaccinate-Neuter-Release) is the most effective and humane way to control the number of homeless animals and ensure their welfare. Besides conducting a free CVNR program at IDEA Animal Care Center (IACC), IDEA began establishing small mobile veterinary clinics in local shelters and training young local vets to sterilize and treat homeless animals in these clinics. First such mobile veterinary unit started to operate in September 2019 at Baku's Mardakan settlement and several more are planned to be installed around Baku, with a view to sterilize, vaccinate, ear-tag and treat a greater number of stray dogs and cats.







## MOBİL BAYTARLIQ KLİNİKALARI

Sahibsiz ev heyvanlarının populyasiyasının sürətlə artması bir çox problemlərə səbəb olur, o cümlədən insanların və heyvanların sağlamlığına və rifahına təhlükə təşkil edir. Hesablamalara görə, bir dişi it və onun balaları cəmi 7 il ərzində dünyaya 67000-ə qədər bala gətirə bilər. Təəssüf ki, onların çoxu hələ balacalıqda xəstəlik, bədbəxt hadisə və digər səbəblərdən tələf olur. Sağ qalanların isə himayəyə götürülmək şansı çox cüzidir və onlar ömürlərinin sonuna kimi küçə həyatına düçar olur. Sterilizasiya və baytar nəzarəti bütün bu əzabların qarşısını alır.

Bir çox ölkələrdə tətbiq edilən CVNR üsulu (tut-axtala-peyvəndlə-burax) sahibsiz küçə heyvanlarının sayının tənzimlənməsi və rifahının təmin edilməsinin ən effektiv və humanist yoludur. IDEA Heyvanlara Qayğı Mərkəzində həyata keçirilən pulsuz CVNR proqramı ilə yanaşı, IDEA yerli sığınacaqlar nəzdində kiçik mobil baytarlıq klinikalarının yaradılması və həmin klinikalarda işləyəcək gənc baytarlar üçün təlimlərin keçirilməsinə başlamışdır. İlk mobil klinika 2019-cu ilin sentyabr ayında Bakının Mərdəkan qəsəbəsində faaliyyətə başlamışdır. Daha çox sayda sahibsiz it və pişiklərin sterilizasiya edilməsi, peyvəndlənməsi, birkalanması və müalicə edilməsi məqsədilə Bakı üzrə bir neçə yerdə bu cür mobil klinikaların yaradılması nəzərdə tutulur.



## WILDLIFE CRIME HOTLINE 1113

Everyone has a role in cracking down on the illegal wildlife trafficking. IDEA is calling on citizens to report cases of suspicious trade in wild animals to its 1113 hotline. The information received from the public via the hotline is channeled to the Ministry of Ecology and Natural Resources, and appropriate joint measures are taken to address each case.

Reports from the public have also resulted in confiscation of wildlife kept without permits. Among the most notable cases in 2017-2019 were the rescue of a bear cub from a canteen in Aghstafa district and confiscation of 8 gazelles from a man in Baku's Mardakan settlement to subsequently release them in Shirvan National Park.








## TƏBİƏTİN TƏCİLİ YARDIMI QAYNAR XƏTTİ 1113

Hər bir insan vəhşi təbiətin qanunsuz istismarı ilə mübarizədə müəyyən rol oynayır. IDEA vətəndaşları vəhşi heyvanların qanunsuz saxlanması və qaçaqmalçılığı halları ilə rastlaşdığı zaman öz şikayətlərini 1113 qaynar xətti vasitəsi ilə bildirməyə çağırır. Qaynar xətt vasitəsilə daxil olan şikayətlər Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə araşdırılır və aidiyyatı tədbirlər görülür.

İctimaiyyət tərəfindən daxil olan müraciətlər əsasında heyvanların bir neçə qanunsuz saxlanması hallarının qarşısı alınmışdır. Ağstafa rayonunda bir yeməkxanada qanunsuz saxlanılan ayı balasının xilası və Bakının Mərdəkan qəsəbəsində saxlanılan 8 ceyranın götürülərək Şirvan Milli Parkında azadlığa buraxılması 2017-2019-cu illərin yaddaqalan hadisələrindəndir.



## URBAN ECOLOGY

At the end of the last century, populations of species that inhabited the city of Baku began to decline sharply due to environmental problems, such as loss of green spaces. However, the gradual restoration and expansion of the urban flora within the last decade have created favorable conditions for the return of some animal species that used to dwell in the city.

In 2019, aiming to preserve and restore the species characteristic for Baku's environment as well as to promote harmony and a healthier connection between people and the environment, IDEA launched a project called «Urban Ecology». Measures are taken out to enrich public spaces in the city with animals and birds, such as squirrels and parrots, which can live and thrive in urban environments. Also, houses for homeless cats and dogs have been installed in many locations around the city.





## ŞƏHƏR EKOLOGİYASI

Son əsrin sonlarında ekoloji problemlər, o cümlədən yaşıllıqların məhv olması nəticəsində Bakı şəhərində məskunlaşan heyvan növlərinin populyasiyalarında kəskin azalma müşahidə olunmuşdur. Lakin son onillik ərzində şəhər florasının davamlı olaraq bərpa edilməsi və genişləndirilməsi keçmişdə şəhərdə mövcud olmuş bəzi heyvanların qaytarılması üçün əlverişli zəmin yaradır.

Bakı şəhərinin mühitinə xas olan fauna növlərinin qorunması və qaytarılması, eləcə də insanlarla ətraf mühit arasında ahəngLik və daha sağlam əlaqənin yaradılması məqsədilə 2019-cu ildə IDEA "Şəhər ekologiyası" adlı layihəyə başladı. Layihə çərçivəsində Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Həmçinin, şəhər boyu sahibsiz it və pişiklər üçün xüsusi evciklər quraşdırılır.



Helping people see the direct link between environmental degradation and human activities, and constantly highlighting the urgency of the matter is the most effective way to get people on board for environmental action and sustainable living.

**Leyla Aliyeva,**
World Food Day ceremony,
Baku, 16 October 2017





Ətraf mühitin deqradasiyasının insan fəaliyyəti ilə əlaqəli olduğunu göstərmək və problemin ciddiliyini daimi vurğulamaq insanların ekoloji fəallığa və davamlı yaşayışa cəlb edilməsinin ən effektiv yoludur.

**Leyla Əliyeva,**
Ümumdünya Ərzaq Günü mərasimi,
Bakı, 16 oktyabr 2017-ci il





## EDUCATION

At IDEA, we believe that education in environmental protection and sustainable development is the most effective way to motivate and equip a generation to create fundamental and lasting change. This is why we have devoted massive efforts aimed at implementation of a range of educational programs and activities, including training sessions, scientific courses, seminars, lectures, camps and field studies. Every year, IDEA expands its agenda with new study activities that are conducted in our well-equipped resource centers for children, students and young professionals.



## TƏHSİL

Ətraf mühitin qorunması və davamlı inkişaf sahəsində maarifləndirmə gənc nəsli fundamental və uzunmüddətli dəyişikliklərə sövq etməyin ən effektiv üsuludur. Bu xüsusda, IDEA tərəfindən təlimlər, elmi seminarlar və kurslar, mühazirələr, düşərgələr və sahə araşdırmalarını özündə birləşdirən bir sıra maarifləndirici proqram və fəaliyyətlər həyata keçirilir. Hər il IDEA uşaqlar, tələbələr və gənc mütəxəssislər üçün müasir resurs mərkəzlərində keçirilən yeni maarifləndirici tədbirlərlə öz təhsil proqramını daha da genişləndirir.

## ECOLOGICAL LABORATORY FOR KIDS

Launched four years ago, the Eco Laboratory for Kids - a program jointly carried out by IDEA and Sevimli Bala Club - continues to educate children about the natural world, with a view to nurture a sense of responsibility towards the environment in kids from the early ages. The Eco Lab is a monthly training session that takes place in IDEA's resource centers in Baku and Ganja.

Sessions consist of theoretical and practical learning on various environmental themes and feature various lab experiments, quizzes and exciting games. Over 1000 kids aged 6 to 11, including children from low-income families and orphanages, have so far attended the sessions.

Since 2017, IDEA added numerous new topics and fun eco activities to its Eco Lab program. A special emphasis was made on informing kids about the Sustainable Development Goals (SDGs) and how they can get involved in the global plan of action for people, planet, and prosperity.



## UŞAQLAR ÜÇÜN EKOLOJİ LABORATORİYA

Erkən yaşlardan ətraf mühitə qarşı məsuliyyət hissini formalaşdırmaq məqsədi ilə dörd il öncə start verilən "Uşaqlar üçün ekoloji laboratoriya" proqramı çərçivəsində uşaqların ekoloji maarifləndirilməsi uğurla davam etdirilir. IDEA və Sevimli Bala klubu tərəfindən təşkil edilən ekoloji laboratoriya IDEA-nın Bakı və Gəncə şəhərində yerləşən resurs mərkəzlərində aylıq əsaslarla keçirilən təlimlərdən ibarətdir.

Təlimlər zamanı uşaqlara müxtəlif ekoloji mövzularda nəzari və praktiki biliklər verilir, laboratoriya sınaqları, viktorinalar və oyunlar keçirilir. Aztəminatlı ailələr və uşaq evlərindən olan uşaqlar daxil olmaqla, ümumilikdə, 1000-dən çox uşaq bu vaxta qədər təlimlərdə iştirak etmişdir.

2017-ci ildən etibarən, IDEA öz Eko-laboratoriya proqramına çoxsaylı yeni mövzular və maraqlı ekoloji fəaliyyətlər əlavə etmişdir. Uşaqların Dayanıqlı İnkişaf Məqsədləri haqqında, həmçinin bu qlobal fəaliyyət planının həyata keçirilməsində necə iştirak edə bilmələri ilə bağlı məlumatlandırılmasına xüsusi önəm verilmişdir.



## THE WORLD'S LARGEST LESSON

Reaching over 130 countries and millions of children since its launch in September 2015, the World's Largest Lesson is an initiative that introduces the Sustainable Development Goals to children and young people everywhere and unites them in action.

With a view to ensure that children grow up knowing and caring about the Sustainable Development Goals and are inspired to help achieve them, IDEA, UNICEF Azerbaijan and Ministry of Education of the Republic of Azerbaijan, launched the World's Largest Lesson program in Azerbaijanin in 2018.

In this regard, materials on SDGs were produced in Azerbaijani and training sessions were conducted for teachers in Baku and the Khachmaz district, who, in turn, held lessons on the Global Goals for hundreds of children in their respective schools, and marked their schools on the project's global map.



## DÜNYANIN ƏN BÖYÜK DƏRSİ

2015-ci ildən başlayaraq 130-dan çox ölkədən olan milyonlarla şagirdin iştirak etdiyi "Dünyanın ən böyük dərsi" Dayanıqlı İnkişaf Məqsədləri haqqında uşaqları məlumatlandıran, onları bu məqsədlərə çatmaqda əlbir edən beynəlxalq təşəbbüsdür.

Uşaqların Qlobal Məqsədlər haqqında məlumatlı böyüməlarini təmin etmək və onları bu hədəflərə nail olmağa töhfə verməyə sövq etmək məqsədilə, 2018-ci ildə IDEA İctimai Birliyi, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Nümayəndəliyi və Təhsil Nazirliyi Azərbaycanda "Dünyanın ən böyük dərsi" layihəsini irəli sürdü.

Qlobal Məqsədlərlə bağlı layihənin dərs materialları Azərbaycan dilində hazırlanmış, Bakı və Xaçmaz rayonunda müəllimlər üçün təlimlər keçirilmişdir. Müəllimlər isə öz məktəblərində təhsil alan yüzlərlə şagirdə Qlobal Məqsədlər haqda dərslər keçmiş və məktəblərinin layihənin rəsmi səhifəsindəki qlobal xəritədə qeyd edilməsinə nail olmuşlar.



# IDEA'S ANNUAL SUMMER CAMPS

IDEA's environmental camps have been annually held since 2014 in various regions of Azerbaijan and attended by hundreds of schoolchildren. In 2017-2019, separate camps were held on three different themes: "Protect the leopard"; "Protect the gazelle" and "Return the bison".

The summer camps aim to bring awareness among school-aged children on the endangered species in the region, increase understanding of conservation programs and encourage behavioral changes that would reduce threats to wildlife. The camps are organized in partnership with Azerbaijan Youth Foundation, Ministry of Education and WWF Azerbaijan, and with the support of district executive powers of Azerbaijan.

During the camps, young people attend lectures on the three species and get to learn about their lifestyles, habitats and the role in nature. Moreover they engage in ecological research practices, thematic games and competitions. The program features field trips to national parks and other protected nature areas.



# IDEA-NIN İLLİK YAY DÜŞƏRGƏLƏRİ

IDEA-nın ekoloji yay düşərgələri 2014-cü ildən etibarən hər il Azərbaycanın müxtəlif regionlarında yüzlərlə məktəblinin iştirakı ilə keçirilir. 2017-2019-cu illərdə düşərgələr üç müxtəlif mövzu üzrə təşkil edilmişdir: "Bəbirləri mühafizə edək!", "Ceyranları qoruyaq!" və "Zubrları təbiətimizə qaytaraq!".

Yay düşərgələrinin keçirilməsində məqsəd məktəbli uşaqların ölkəmizdə nəsli kəsilmək təhlükəsi altında olan növlərlə bağlı maarifləndirilməsi, mühafizə proqramları haqqında məlumatlılığın artırılması və vəhşi təbiəti təhlükə altına salan təhdidləri azaltmaq məqsədilə davranışların dəyişdirilməsini təşviq etməkdir. Düşərgələr Azərbaycan Respublikasının Gənclər Fondu, Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyi ilə tərəfdaşlıqda, rayon icra hakimiyyəti orqanlarının dəstəyi ilə təşkil edilir.

Düşərgələr zamanı gənclər hər üç növlə bağlı mühazirələrdə iştirak edir, onların həyat tərzi, məskunlaşma yerləri və təbiətdəki rolu ilə bağlı geniş məlumatlar əldə edirlər. Bununla yanaşı, gənclər ekoloji tədqiqatlar, ekoloji oyun və yarışlara cəlb edilirlər. Proqram çərçivəsində iştirakçıların milli parklara və digər qorunan təbiət ərazilərinə turları təşkil edilir.



## IDEA ECO SCOUT CLUB

In 2017, consistent with its mission to engage more Azerbaijani young people in environmental protection and education, IDEA launched its Eco Scout program. The Eco-Scout Club is a great platform for young people to take part in nature protection and become leaders of the environmental movement within their respective communities.

Each member of the club receives a membership card used to collect points as well as an Eco Scout badge, hat and backpack. Upon joining the club, members get the title of «Young Environmentalist» and are gradually promoted to higher titles with more points they earn. Eco Scout points are earned by completing a range of environmental activities. Those who collect enough points to pass each level are also awarded with gifts from IDEA.

Since the launch of the club, IDEA has enrolled around two hundred young nature-lovers and is actively seeking new memberships, mostly through reaching out to local schools.








## IDEA EKO-SKAUT KLUBU

2017-ci ildə IDEA İctimai Birliyi daha çox Azərbaycan gəncini ətraf mühitin mühafizəsinə və ekoloji maarifləndirilməyə cəlb etmək məqsədilə Eko-skaut proqramını təsis etdi. Eko-skaut layihəsi gənclərə təbiətimizin qorunmasında iştirak etmək və ictimaiyyət arasında bu ekoloji hərəkatın lideri olmaq imkanı yaradır.

Kluba qoşulan gənclərə ballar toplanan üzvlük kartı, həmçinin papaq, bel çantası, döş nişanı verilir. Yeni qoşulan üzvlər "Gənc ekoloq" adlanır və daha sonra ballar yığaraq öz statuslarını yüksəltmək imkanı əldə edirlər. Kifayət qədər bal toplayan eko-skautlara digər mərhələlərə keçdikcə IDEA tərəfindən qiymətli hədiyyələr təqdim olunur.

Eko-skaut proqramı təsis edildiyi vaxtdan etibarən iki yüzdən çox təbiətsevər gənc Kluba üzv olmuşdur. IDEA İctimai Birliyi yerli məktəblərlə daimi ünsiyyət quraraq yeni üzvlərin fəal axtarışına davam edir.



## ECO SCOUT CAMP

In 2018, IDEA and the Association of Scouts of Azerbaijan (ASA) launched the Eco Scout Camps. Organized as part of IDEA Eco Scout program, the camps aim to cultivate awareness of local and global environmental challenges among the country's youth, and install lifelong interest in environmental stewardship and ethics.

In the past two years, four separate camps were held in national parks of Azerbaijan, including in Shirvan, Aggol, Shahdag and Goygol national parks. Around 500 young people aged 18-30, who are pursuing environmental field studies or have experience in related fields, attended the camps. During the camps, participants toured the national parks and learned about species these specially protected areas serve to preserve.

With a view to expand young people's knowledge on Azerbaijan's rich biodiversity, IDEA plans to organize Eco Scout Camps in other national parks of the country as well.



## EKO-SKAUT DÜŞƏRGƏLƏRİ

2018-ci ilin mayında IDEA və Azərbaycan Skautlar Assosiasiyasının təşkilatçılığı ilə «Təbiətin keşiyində» eko-skaut düşərgələrinə start verilmişdir. IDEA Eko-skaut proqramı çərçivəsində təşkil edilmiş düşərgələrin məqsədi gəncləri yerli və qlobal ekoloji problemlərin həlli ilə bağlı maarifləndirmək, ətraf mühitin idarə edilməsinə cəlb etmək və onlar arasında təbiətdə etik davranışı təşviq etməkdir.

Son iki il ərzində Azərbaycanın milli parklarında, o cümlədən Şirvan, Ağgöl, Şahdağ və Göygöl milli parklarında dörd düşərgə təşkil edilmişdir. Düşərgələrdə 18-30 yaş arası ekoloji təhsili və ya bu sahədə təcrübəsi olan 500-ə yaxın gənc iştirak etmişdir. Düşərgələr zamanı gənc təbiətsevərlər milli parklar və onların ərazisində mühafizə olunan növlər haqqında biliklər əldə etmişlər.

Azərbaycanın zəngin biomüxtəlifliyi ilə bağlı gənclər arasında məlumatlılığın artırılması məqsədilə IDEA ölkənin digər milli parklarında da eko-skaut düşərgələrini təşkil etməyi planlaşdırır.



## INSPIRING GREEN MINDS

Organizing visits to educational institutions around the country, meeting with the young minds, sharing our stories and inspiring them to think 'green' is something IDEA has been doing since day one. Presentations, typically held for mass audiences, cover IDEA activities in nature protection and sustainable development, and are followed by interactive discussions with children and youth on numerous environmental topics.

Within the past three years, we have held presentations at dozens of schools and universities of Azerbaijan, informing young people about the many ways that they can get involved in protecting the environment. By holding such meetings, IDEA aims to deepen young people's understanding and sense of responsibility towards the environment, as well as to encourage them to live sustainably, join IDEA's efforts and become ambassadors for environmental awareness.



## GƏNC TƏBİƏTSEVƏRLƏRİN SƏFƏRBƏR EDİLMƏSİ

Yarandığı ilk gündən etibarən IDEA tərəfindən ölkənin təhsil müəssisələrinə mütəmadi ziyarət və görüşlər təşkil edilir, fəaliyyətimiz haqqında gənclərə geniş məlumat verilir. IDEA-nın bu cür görüşlər keçirməkdə əsas məqsədi gənclərdə ətraf mühitə qayğı və məsuliyyət hissini dərinləşdirmək, onları «yaşıl» hərəkata cəlb etmək, həmçinin dayanıqlı həyat sürməyə, IDEA-nın səylərinə qoşulmağa və digər insanları da maarifləndirməyə sövq etməkdir.

Son üç il ərzində də Azərbaycanın onlarla məktəb və universitetində təqdimatlar keçirilmiş, gənclərə ətraf mühitin mühafizəsinə necə töhfə verə biləcəkləri haqqında məlumat verilmişdir. Adətən böyük kütlə üçün təşkil edilən təqdimatlar IDEA-nın təbiətin qorunması və davamlı inkişaf sahəsində fəaliyyətini əhatə edir və çoxsaylı ekoloji mövzular üzrə interaktiv müzakirələrlə yekunlaşır.



## GREEN CONVERSATION CLUB

Launched in 2012 with the vision to improve English language skills of young environmentalists, the Club consists of monthly interactive discussions on a range of environmental issues with participation of various local and foreign experts with an environmental background, who moderate discussions.

By increasing the ability of people to access and analyze most up-to-date and reliable information about the environment in English, the sessions aimed to encourage further interest and self-education in various environmental issues.

Discussions held at the Club in 2017-2019 focused on such topics as sustainable development, green economy, waste management, air and land pollution, global warming, other pressing environmental challenges and the role of youth in solving them.



## YAŞIL SÖHBƏT KLUBU

Gənc ekoloqların ingilis dili səviyyələrinin təkmilləşdirilməsi məqsədilə 2012-ci ildə start verilən "Yaşıl söhbət klubu" ətraf mühit sahəsində təcrübəsi olan yerli və xarici mütəxəssislərin iştirakı ilə hər ay müxtəlif ekoloji mövzularda interaktiv müzakirələr şəklində təşkil edilir.

Ətraf mühit haqqında ingilis dilində ən yeni və etibarlı məlumatları əldə etmək və təhlil etmək imkanı yaratmaqla, bu müzakirələr, həmçinin gənclərin müxtəlif ekoloji məsələlərə marağını artırmaq məqsədinə yönəldilmişdir.

2017-2019-cu illərdə Klubda keçirilmiş müzakirələr davamlı inkişaf, yaşıl iqtisadiyyat, tullantıların idarə edilməsi, hava və torpaq çirklənməsi, qlobal istiləşmə və digər vacib ekoloji problemlər və onların həllində gənclərin rolu mövzularına həsr olunmuşdur.



## THE KURA BOX

In early 2019, IDEA collaborated with UNDP GEF Kura II Project and other partners to develop "The Kura Box" Learning toolkit. The book aims to provide a better understanding of the current state of water resources in the Kura river basin, examines links between human activities and environmental degradation in the basin, as well as potential impacts of such global threats as climate change and disasters on its water resources. The publication also includes interesting facts about water resources, related ecosystems and provides additional information about some environmental concepts.

The toolkit can be used as an additional source of information for the schoolteachers, students and everyone else who uses water. The publication's electronic version is publicly available online and can be downloaded at www.ideacampaign.org.



## KÜR BOĞÇASI

2019-cu ilin əvvəlində IDEA, BMTİP-QEF Kür II Layihəsi və digər tərəfdaşların birgə səyləri nəticəsində "Kür Boğçası" tədris vəsaiti hazırlanmışdır. Tədris vəsaitinin hazırlanmasında məqsəd Kür çayı hövzəsinin su ehtiyatlarının indiki vəziyyəti, hövzənin ekoloji deqradasiyasının insan fəaliyyəti ilə əlaqəsi, eləcə də iqlim dəyişikliyi və təbii fəlakətlər kimi qlobal təhlükələrin çayın su ehtiyatlarına potensial təsirləri haqqında biliklərin artırılmasıdır. Nəşr su ehtiyatları və ekosistemlərlə bağlı maraqlı məlumatları özündə ehtiva etməklə yanaşı, ətraf mühitlə bağlı bəzi konsepsiyaları da oxuculara təqdim edir.

Tədris vəsaitindən hər bir məktəb müəllim və şagirdi, eləcə də istənilən su istifadəçisi əlavə məlumat mənbəyi kimi istifadə edə bilər. Nəşrin elektron versiyasını IDEA-nın internet səhifəsindən (www.ideacampaign.org) yükləmək mümkündür.



By virtue of art and creativity we are trying to convey how vulnerable our planet is and how badly it needs us to protect it.

**Leyla Aliyeva,**
"Live Life" exhibition,
Moscow, 28 April 2017





İncəsənət və yaradıcılıq vasitəsilə biz planetimizin nə qədər hassas olduğunu, tərəfimizdən onun qorunmasına nə qədər kəskin ehtiyacı olduğunu çatdırmağa çalışırıq.

**Leyla Əliyeva,**
"Live Life" sərgisi,
Moskva, 28 aprel 2017-ci il



## ADVOCACY AND PUBLIC AWARENESS

Advocacy and awareness-raising are essential in IDEA's efforts to inform the wider public about pressing ecological challenges of the day and to motivate individuals, households, groups and whole communities to be part of the solution. Along with our regular 'green' events and activities, IDEA, in cooperation with its partners, has undertaken several initiatives on promoting the Sustainable Development Goals in Azerbaijan.



## TƏŞVİQAT VƏ İCTİMAİ MAARİFLƏNDİRMƏ

Təşviqat və maarifləndirmənin artırılması işləri aktual ekoloji çağırışlar haqqında geniş ictimaiyyətin məlumatlandırılması, fərdlərin, qrupların və bütöv icmaların bu problemlərin həlli prosesinə cəlb edilməsi üzrə səylərimizin əsasını təşkil edir. Müntəzəm olaraq təşkil edilən "yaşıl" tədbirlər ilə yanaşı, son üç il ərzində IDEA, tərəfdaşları ilə birlikdə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi üzrə bir sıra təşəbbüslər irəli sürmüşdür.

## LIVE LIFE EXHIBITION

Exhibitions focusing on the theme of harmony with nature and sources of life were held in recent years in Baku, Berlin, Paris, Moscow, London and Tbilisi, displaying artworks by IDEA Founder Leyla Aliyeva as well as various other artists from Azerbaijan and around the world. All proceeds from the Live Life exhibition were directed to environmental causes.

The exhibitions are part of IDEA's efforts to engage the public in nature protection through art. At the same time, the charity events aim to support various biodiversity conservation efforts, such as IDEA's project to clean and restore the Kura river delta.

## "LİVE LİFE" SƏRGİSİ

Son illər ərzində Bakı, Berlin, Paris, Moskva, London və Tiflis şəhərlərində Leyla Əliyeva və digər Azərbaycanlı və xarici rəssamların təbiətlə ahənglik və həyat mənbələri mövzusuna həsr olunmuş işlərindən ibarət sərgilər keçirilmişdir. "Live Life"sərgisindən əldə edilən bütün gəlirlər ətraf mühitin mühafizəsi üzrə səylərin dəstəklənməsinə yönəldilir.

Bu cür sərgilər ictimaiyyəti incəsənət vasitəsi ilə təbiətin qayğısına qalmağa sövq etmək məqsədini daşıyır. Eyni zamanda, sözügedən xeyriyyə tədbirləri biomüxtəlifliyin qorunub saxlanması üzrə səylərin, o cümlədən IDEA-nın Kür çayı deltasının təmizlənməsi və bərpası üzrə layihəsinin həyata keçirilməsinə də töhfə verir.



## ECO CINEMA

Visual images are a powerful tool for learning and motivation, especially when it comes to environmental issues. Documentaries that demonstrate the whole beauty and magnificence of nature and biodiversity are an effective supplement to theoretical knowledge. Films are especially appealing to young people, enabling them to better appreciate our natural treasures and assess environmental threats, and inspiring them to be part of the solution. As in previous years, IDEA has continued its Eco Cinema series, where we regularly screen environmental documentaries for hundreds of young people.

In the past three years, IDEA organized screening sessions of films from IDEA's documentary series dedicated to the country's national parks, as well as of «The World's Most Wanted Leopard» documentary on the endangered Caucasian leopard, shot by a famous photographer and filmmaker Adrian Sternin.



## ECO CİNEMA

Ekoloji məsələlərə gəldikdə vizual materiallar bilik əldə etmə və motivasiya üçün xüsusi ilə vacib və təsirli vasitədir. Təbiət və biomüxtəlifliyin gözəlliyi və möhtəşəmliyini nümayiş etdirən sənədli filmlər gənc ekoloqların nəzəri bilikləri üçün faydalı əlavədir. Yüksək keyfiyyətli filmlər gəncləri xüsusilə cəlb edir, onları təbii sərvətlərimizi layiqincə dəyərləndirməyə, ətraf mühitə olan riskləri düzgün qiymətləndirməyə sövq edir, problemin həllində iştirak etməyə həvəsləndirir. Əvvəlki illərdə olduğu kimi, IDEA öz Eco Cinema proqramı çərçivəsində müntəzəm olaraq yüzlərlə gənc üçün ekoloji filmlərin nümayişini təşkil edir.

Son üç il ərzində ölkəmizin milli parklarına həsr olunmuş IDEA-nın sənədli filmlərinin, eləcə də məşhur rejissor və fotoqraf Adrian Sternın nadir Qafqaz bəbirinə həsr olunmuş "Dünyanın ən çox axtarılan bəbiri" sənədli filminin nümayişləri keçirilmişdir.



## EARTH HOUR CAMPAIGN

WWF's Earth Hour movement was launched in Australia in 2007, with a view to draw public attention to problems faced by our planet, including the impacts of climate change. During Earth Hour, the lights of landmark buildings in large cities are turned off at 20:30 local time for one hour on the last Saturday of March every year.

Azerbaijan joined the list of countries supporting this global campaign in 2011, and since then the campaign has annually been held in the country with the support of IDEA. Since 2014, IDEA has been granted the status of an official national coordinator by WWF. As in previous years, mass celebrations were organized jointly with WWF Azerbaijan in central Baku on Earth Day 2017, 2018 and 2019, and lights were switched off in many landmark buildings of the city.



## "YER SAATI" KAMPANİYASI

Dünya Vəhşi Təbiət Fondunun (WWF) "Yer saatı" kampaniyası 2007-ci ildə Avstraliyada ictimaiyyətin diqqətini planetimizin üzləşdiyi problemlərə, o cümlədən iqlim dəyişikliyinin təsirlərinə yönəltmək məqsədilə başlanmışdır. Hər il mart ayının son şənbə günü qeyd olunan "Yer saatı" aksiyaları zamanı böyük şəhərlərdəki məşhur binaların işıqları yerli vaxtla saat 20.30-da bir saatlıq söndürülür.

Azərbaycan bu qlobal kampaniyanı dəstəkləyən ölkələr siyahısına 2011-ci ildə daxil olmuş və həmin dövrdən etibarən bu kampaniya hər il Azərbaycanda IDEA-nın dəstəyi ilə keçirilmişdir. 2014-cü ilin noyabr ayında Dünya Vəhşi Təbiət Fondu IDEA İctimai Birliyinə Beynəlxalq "Yer saatı" kampaniyasının Azərbaycan üzrə rəsmi ölkə koordinatoru statusunu vermişdir. Son illərdə olduğu kimi, WWF Azərbaycanla tərəfdaşlıqda "Yer Saatı" 2017, 2018 və 2019 münasibəti ilə Bakıda kütləvi əyləncəli aksiyalar təşkil edilmiş, şəhərin bir çox iri binalarının işıqları söndürülmüşdür.



## WORLD CARFREE DAY CELEBRATION

Marked on September 22nd, World Carfree Day was started in 2000 as a grassroots movement by the World Carfree Network. It has grown to involve participants from around 1,500 cities in 40 countries. The campaign is intended to promote more sustainable and clean ways of transportation and to reduce the human impact on the natural environment.

On 22 September 2017, Baku residents were called to leave their cars at home and join IDEA, Heydar Aliyev Center, Azerbaijan Cycling Federation and Baku Transport Agency for a bike ride in support of World Carfree Day. Hundreds of people took part in the bicycle rally held under the motto “Let's bike to work”, followed by an entertaining awareness program, featuring performances by cyclists and skateboarders, an exhibition of locally made ISMA bikes and handmade bicycles, and other fun activities.



## «ÜMUMDÜNYA AVTOMOBİLSİZ GÜNÜ» MÜNASİBƏTİ İLƏ VELOYÜRÜŞ

Sentyabrın 22-də qeyd edilən “Ümumdünya Avtomobilsiz Günü” 2000-ci ildə qlobal hərəkat kimi Ümumdünya Avtomobilsiz Şəbəkə tərəfindən başlanılmışdır. İndiyə kimi bu kampaniya dünyanın 35 ölkəsinin 1500-dən çox şəhərində qeyd edilmişdir. Kampaniya daha dayanıqlı və təmiz nəqliyyat növlərini təşviq etmək və insan fəaliyyətinin təbiətə vurduğu zərəri azaltmaq məqsədini daşıyır.

2017-ci ilin sentyabr ayının 22-də yüzlərlə Bakı sakini avtomobillərini evdə qoyaraq, “Ümumdünya Avtomobilsiz Günü” münasibətilə IDEA İctimai Birliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Velosiped İdmanı Federasiyası və Bakı Nəqliyyat Agentliyi tərəfindən keçirilən veloyürüşə qoşulmuşlar. “İş yerinə velosipedlə!” şüarı altında keçirilmiş veloyürüşdən sonra əyləncəli və maarifləndirici proqram, o cümlədən ekstrim velosipedçi və skeytbordçuların şousu, Azərbaycanda istehsal edilən «ISMA BIKES» velosipedlərinin və qeyri-adi əl işi velosipedlərin nümayişi və s. təşkil edilmişdir.



## SNAKE IDENTIFICATION POSTERS

Snakes are widespread in Azerbaijan, and with the coming of summer the reptiles become particularly active. Considering regular camps and field trips to nature organized by IDEA and, in general, the higher likelihood of encountering a snake by people during the summer months, in 2017, IDEA prepared educational posters to raise awareness on poisonous and non-poisonous snakes in Azerbaijan and on how to act when encountering a snake.

The posters are distributed to schools and universities, national parks and reserves as well as ASAN service centers across the country. They are also distributed electronically and are available at the IDEA website.

## İLANLAR HAQQINDA MƏLUMATLANDIRICI PLAKATLAR

İlanlar Azərbaycanda çox geniş yayılıb və yay fəsli gələndə onlar xüsusilə fəallaşır. IDEA tərəfindən mütəmadi olaraq açıq təbiətdə düşərgə və tədbirlərin təşkil edildiyini və ümumiyyətlə yay aylarında ilana rast gəlmək ehtimalının daha yüksək olduğunu nəzərə alaraq, 2017-ci ildə IDEA tərəfindən Azərbaycanda zəhərli və zəhərsiz ilanlar və onlarla qarşılaşdıqda necə davranmaq lazım olduğu ilə bağlı maarifləndirici plakatlar hazırlanmışdır.

Plakatlar respublika üzrə ali və orta təhsil müəssisələrinə, milli parklara və qoruqlara, eləcə də bütün "Asan Xidmət" mərkəzlərinə paylanmışdır. Plakatlar, həmçinin elektron qaydada paylanır və IDEA-nın internet səhifəsindən əldə oluna bilər.



## DOCUMENTARY SERIES ON NATIONAL PARKS

IDEA's documentary film series about each of the country's ten national parks - aims to promote the fascinating natural beauties of Azerbaijan, both within the country and abroad, and to highlight the importance of protecting our natural treasures.

Documentaries on Shirvan, Agh-gol, Goy-gol, Absheron and Shahdagh national parks by film director Igor Bishnyov have already been produced, presented and shown on national TV channels. The films are freely available on IDEA's YouTube channel. Five more documentaries are to be produced, namely on Hirkan, Altiaghaj, Zangazur, Samur-Yalama and Gizilaghaj national parks.



## MİLLİ PARKLAR HAQQINDA FİLMLƏR SİLSİLƏSİ

IDEA tərəfindən Azərbaycanın on milli parkı haqqında sənədli filmlər silsiləsinin yaradılmasının əsas məqsədi ölkəmizin zəngin və gözəl təbiəti haqqında yerli və xarici auditoriyaları məlumatlandırmaq, bu sərvətlərin qorunmasının vacibliyini vurğulamaqdan ibarətdir.

İqor Bışnyovun rejissorluğu ilə Şirvan, Ağgöl, Göygöl, Abşeron və Şahdağ milli parkları haqqında filmlər artıq çəkilmiş, təqdim edilmiş və yerli televiziya kanallarında nümayiş etdirilmişdir. Filmlərə IDEA-nın YouTube kanalında baxmaq mümkündür. Növbəti illərdə Hirkan, Altıağac, Zəngəzur, Samur-Yalama və Qızılağac milli parkları haqqında daha beş sənədli filmin çəkilərək ictimaiyyətə təqdim olunması planlaşdırılır.



## ENVIRONMENTAL POSTER CONTEST

Environmental poster contest was held in 2018 to encourage creative, resonant, challenging and original entries - posters that can inspire people to start taking care of the environment. The contest sought works that best communicated environmental issues and sent a strong message on the urgency to protect nature and wildlife.

Three submissions were selected as contest winners and awarded with gifts and cash. First place winners became the creators of «Do you see it now?» concept by Sinan Agayev, Parviz Babayev and Amal Alili, who portrayed environmental problems by putting them at the heart of Baku city. Second place winner, Kamal Jafarov, made a powerful statement the issue of illegal tree cutting. Third place winner, Elnur Babayev, alluded to the effects of climate change, calling for urgent action to stop pollution.











## EKOLOJİ POSTER MÜSABİQƏSİ

İnsanları ətraf mühitin qayğısına qalmağa sövq edə bilən kreativ, təlqinedici və orijinal təsvirlərin yaradılması məqsədilə 2018-ci ildə IDEA-nın Ekoloji poster müsabiqəsi təşkil edilmişdir. Müsabiqə ətraf mühitlə bağlı problemləri ən yaxşı ifadə edə bilən, təbiət və canlı aləmin mühafizəsinin əhəmiyyəti haqqında ən təsirli çağırış edə bilən işlərin müəyyən edilməsini nəzərdə tuturdu.

Müsabiqənin nəticəsi olaraq üç qalib seçilmiş, qiymətli hədiyyələr və pul ilə mükafatlandırılmışdır. Müsabiqənin birinci yerinin qalibləri «İndi görünür?» mövzulu işlərilə Sinan Ağayev, Pərviz Babayev və Amal Əlili olub. Onlar ən geniş yayılmış ekoloji problemi - ətraf mühitin çirkləndirilməsini şəhərimizin simasında nümayiş ediblər. İkinci yerin qalibi Kamal Cəfərov öz kreativ işi ilə qanunsuz ağac kəsintisi hallarına etirazını ifadə edib. Üçüncü yerin qalibi tullantıları azaldaraq qlobal iqlim dəyişikliyinin mənfi təsirlərini aradan qaldırmaq üçün təcili tədbirlər görməyə çağıran Elnur Babayev olub.






## SDG STANDS IN THE BAKU BOULEVARD

As part of efforts to promote the Sustainable Development Goals in Azerbaijan, massive SDG stands devoted to each of the 17 Global Goals have been installed in the crowded Baku Boulevard, in collaboration with United Nations Azerbaijan.

The opening ceremony of the SDG stands was held in July 2018, with the participation government officials, representatives of the United Nations agencies, civil society, youth organizations and the media. Two-sided colorful stands display information on each goal and provide suggestions on how every person can contribute to its achievement.



## BAKI BULVARINDA DİM STENDLƏRİ

Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) Azərbaycanda təşviq edilməsi üzrə səylərin bir hissəsi olaraq, IDEA və BMT-nin İctimai İnformasiya Departamentinin birgə təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə həsr olunmuş nəhəng stendlər quraşdırılmışdır.

DİM stendlərinin açılış mərasimi 12 iyul 2018-ci il tarixində yüksək səviyyəli hökumət və BMT rəsmiləri, eləcə də vətəndaş cəmiyyəti, gənclər təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə keçirilmişdir. Rəngarəng ikitərəfli stendlər hər məqsədi asan şəkildə izah etməklə yanaşı, bu məqsədlərə nail olmaq üçün hər kəsin görə biləcəyi işlərə dair məsləhətləri özündə əks etdirir.



## OUTDOOR GYM IN THE BAKU BOULEVARD

Mental and physical health is one of the prerequisites for sustainable human development. Consistent with IDEA's efforts to promote healthy and active lifestyles, sport facilities have been created in nine public parks within the past two years, in cooperation with «Cavan» Youth Movement Public Union.

Furthermore, a new outdoor gym was unveiled in 2018 in one of the most visited public areas of the city – the Baku Boulevard. The facility was especially built to accommodate the increasingly popular sport type called street workout, which involves bodyweight exercises that improve your muscle strength, flexibility and endurance. The outdoor gym is also accessible for people with special needs.



## AÇIQ HAVADA İDMAN MEYDANÇASI

Mənəvi və fiziki sağlamlıq dayanıqlı insan inkişafının əsas şərtlərindən biridir. Son iki il ərzində sağlam və fəal həyat tərzinin təşviq edilməsi məqsədilə IDEA və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı ilə Bakının doqquz ictimai parkında idman meydançaları yaradılmışdır.

Bununla yanaşı, 2018-ci ildə insanların ən sıx cəmləşdiyi yerlərdən biri olan Dənizkənarı Milli Parkda yeni idman meydançası istifadəyə verilmişdir. İdman meydançası dünyada populyar olan və sürətlə inkişaf edən, əzələ gücü, elastiklik və dözümlülüyü artıran məşğələlərdən ibarət olan Street Workout (küçə məşqi) idman növünün tələblərinə uyğun qurulmuşdur. Açıq havada idman meydançasında fiziki imkanları məhdud olan insanların da rahat məşq edə bilmələri üçün lazımi şərait yaradılmışdır.



## FOOTBALL MASTER-CLASS IN SUPPORT OF SDGS

On 12 June 2018, a football master-class session for children was organized in the Baku Boulevard, jointly with Association of Football Federations of Azerbaijan (AFFA) and United Nations Azerbaijan. The event aimed to promote awareness on Sustainable Development Goals and encourage the young generation's interest for sports, healthy lifestyle and sustainable development.

During the event, leading players of the Azerbaijani national football team Kamran Aghayev, Javid Imamverdiyev and Ruslan Gurbanov, conducted an exciting training session to about 60 junior football enthusiasts. Following the training session, the kids played a football match together the players of the national team.



## QLOBAL MƏQSƏDLƏRƏ HƏSR OLUNMUŞ FUTBOL MASTER-KLASSI

12 iyun 2018-ci il tarixində IDEA İctimai Birliyi, BMT-nin Azərbaycan Nümayəndəliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birgə təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda uşaqlar üçün futbol üzrə master-klass keçirilmişdir. Tədbir BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı maarifləndirilmənin artırılması, gənc nəslin nümayəndələri arasında idman, sağlam həyat tərzi və dayanıqlı inkişafın təbliği məqsədilə təşkil edilmişdir.

Tədbir zamanı milli yığma komandamızın futbolçuları Kamran Ağayev, Ruslan Qurbanov və Cavid İmamverdiyev 60 nəfər kiçik futbol pərəstişkarı üçün ustad dərsləri keçmişlər. Təlimin ardınca uşaqlar və milli yığmamızın oyunçularının iştirakı ilə futbol matçı keçirilmişdir.



## RECYCLING BINS

For years IDEA has been promoting recycling and awareness on proper waste management through public education campaigns and mass waste collection events. In early 2017, IDEA kicked off a recycling program, whereby specially designed green (paper) and blue (plastic) waste bins were placed in up to a hundred of schools, universities and office buildings in Baku. Around 2500 tons of paper 300 tons of plastic waste has so far been recycled as a result of joint efforts by IDEA and Azersun Holding.

IDEA is steadfastly expanding the program and involving more students, teachers and school staff in the recycling process, aiming to both increase the volumes of the collected waste and attract wider attention to the importance of recycling and waste management.



## TƏKRAR EMAL QUTULARI

Yarandığı vaxtdan etibarən IDEA öz təhsil proqramları və kütləvi təmizlik aksiyaları vasitəsilə tullantıların səmərəli idarə olunması ilə bağlı ictimai maarifləndirmənin artırılması və təkrar emalın təşviq edilməsi məsələsinə geniş diqqət yetirir. 2017-ci ilin əvvəlində təşkilat tərəfindən təkrar emal proqramına start verilmişdir. Belə ki, xüsusi dizayna malik olan yaşıl (kağız) və mavi (plastik) təkrar emal qutuları yüzlərlə məktəb, universitet və ofis binalarında yerləşdirilmişdir. İndiyə kimi, proqram çərçivəsində IDEA və "Azersun Holding"-in birgə səyləri ilə təxminən 2500 ton kağız və 300 ton plastik tullantı toplanaraq təkrar emala göndərilmişdir.

Həm toplanan tullantıların həcmini artırmaq, həm də tullantıların effektiv idarə olunmasının vacibliyini geniş ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə IDEA getdikcə proqramı genişləndirmək və daha çox tələbə, müəllim və təhsil işçilərini təkrar emal prosesinə cəlb etmək niyyətindədir.



## PROMOTING SDGS WITH FAO

In 2017, IDEA signed an agreement with FAO Partnership and Liaison Office in Azerbaijan for collaboration in implementing advocacy activities on Sustainable Development Goals in Azerbaijan. The objective is to strengthen the awareness of relevant state agencies, national stakeholders and public on the role and contribution of sustainable food and agriculture to SDGs.

Numerous SDG advocacy materials on food security and agriculture, including video ads, billboards, publications and other materials in the Azerbaijani language have been produced, disseminated and used in numerous awareness-raising activities. Special emphasis was given to the issues of food waste and the link between climate change and agricultural development.



## QLOBAL MƏQSƏDLƏRİN TƏŞVİQİ

2017-ci ildə IDEA Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təşviq edilməsinə yönəlmiş maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə dair FAO-nun Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi ilə müqavilə imzalamışdır. Layihənin məqsədi müvafiq dövlət orqanları, maraqlı tərəflər və ictimaiyyət arasında dayanıqlı ərzaq və kənd təsərrüfatının DİM-lərin həyata keçirilməsində rolu və töhfəsi barədə maarifləndirilmə səviyyəsinin artırılmasından ibarətdir.

Layihə çərçivəsində qida təhlükəsizliyi və kənd təsərrüfatı ilə bağlı Azərbaycan dilində təbliğat materialları, o cümlədən videoçarxlar, bilbordlar, nəşrlər və digər materiallar hazırlanmış, paylanmış və müxtəlif tədbirlərdə istifadə olunmuşdur. Layihədə qida israfçılığı problemi, eləcə də iqlim dəyişikliyi ilə kənd təsərrüfatı arasında olan əlaqəyə xüsusi diqqət yetirilmişdir.



## FIRST MARINE HOPE SPOT IN THE CASPIAN

On 8 November 2019, upon nomination by IDEA and BLUE, the newly established Gizilaghaj National Park was announced to be a Mission Blue Hope Spot. Hope Spots are ecologically unique marine areas designated for protection under a global conservation campaign overseen by a non-profit organization Mission Blue. They are special places that are critical to the health of the World Ocean.

The launch of the first Hope Spot in the Caspian Sea has been followed by continuous global media coverage of the marine protected area (MPA) in Gizilaghaj, drawing attention to the importance of protecting the area.



## XƏZƏR REGİONUNDA İLK ÜMİD YERİ

8 noyabr 2019-cu il tarixində IDEA və "Mavi Dəniz Fondu"nun (BLUE) təqdimat sənədinə əsasən, yeni yaradılmış Qızılağac Milli Parkı "Mission Blue" təşkilatı tərəfindən ümid yeri kimi müəyyən edilmişdir. Ümid yerləri "Mission Blue" adlı qeyri-kommersiya təşkilatı tərəfindən aparılan dəniz ərazilərinin mühafizə kampaniyası çərçivəsində təyin edilən, ekoloji baxımdan unikal olan dəniz əraziləridir. Bu ərazilər Dünya okeanının sağlamlığı üçün mühüm olan xüsusi yerlərdir.

Xəzər dənizində ilk ümid yerinin elan olunması vaxtından etibarən dünya kütləvi informasiya vasitələrində Qızılağacdakı mühafizə olunan dəniz ərazisi və onun qorunmasının əhəmiyyəti haqqında mütəmadi olaraq məlumatlar yayılır.



## AWARENESS CAMPAIGN ON FORESTS

Comprising 11.8% of the country's land area, forests are among the most valuable natural resources of Azerbaijan and play an extremely important role in people's lives and livelihoods. For decades, forests have been under serious pressure as a source of fuel for heating, timber products and as forest pastures. Forest degradation, deforestation, and unsustainable use of forestsare the main challenges facing forestry in Azerbaijan.

In 2018, IDEA signed an agreement with FAO for support in implementing an awareness-raising campaign on socio-economic and environmental benefits of the forests.Numerous advocacy materials on forests, including video ads, publications and other materials are being developed and disseminated within the campaign, and a number of public events are held in the country's regions. As part of the project, in March of 2019, IDEA, FAO and the Ministry of Ecology and Natural Resources held a seminar and a tree-planting event to mark the International Day of Forests at a school in the Gakh district.



## MEŞƏLƏRLƏ BAĞLI MAARİFLƏNDİRMƏ KAMPANİYASI

Ölkə ərazisinin 11.8%-ni təşkil edən meşələr bizim ən dəyərli təbii sərvətlərimizdən biri olaraq insanların həyat və dolanışığında da vacib rol oynayır. Onilliklər ərzində meşələr yanacaq və tikinti materiallarının mənbəyi, eləcə də otlaqlar kimi istifadə olunaraq ciddi təzyiqə məruz qalmışlar. Meşə deqradasiyası, meşəsizləşmə və meşələrdən qeyri-dayanıqlı istifadə Azərbaycanda meşəçiliyə olan əsas təhlükələrdəndir.

2018-ci ildə IDEA ilə FAO arasında meşələrin sosial-iqtisadi və ekoloji faydaları üzrə maarifləndirmə kampaniyasının həyata keçirilməsinə dair müqavilə imzalanmışdır. Layihə çərçivəsində meşələrlə bağlı müxtəlif təbliğat materialları, o cümlədən videoçarxlar, nəşrlər və digər materiallar hazırlanaraq yayılır, ölkənin regionlarında kütləvi tədbirlər keçirilir. Bu xüsusda, 2019-cu ilin mart ayında IDEA İctimai Birliyi, FAO və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Qax rayonunda yerləşən məktəb-liseyində Ümumdünya Meşələr Gününə həsr olunan seminar və ağacəkmə aksiyası təşkil olunmuşdur.



## TRASHTAG CHALLENGE IN AZERBAIJAN

In early 2019, a new global internet challenge swept through social media inspiring people to pick up trash. The challenge consisted of finding a littered public area, cleaning it up and sharing'before' and 'after' images of the area on Facebook and Instagram.

Seizing this opportunity to spread environmental awareness, IDEA and Azerbaijani Youth Foundation launched the #Trashtag challenge competition in Azerbaijan. Dozens of individual and group submissions from all over the country followed the announcement, five of which were selected as winners and awarded for the most outstanding results.









## AZƏRBAYCANDA "TRASHTAG" MÜSABİQƏSİ

2019-cu ilin əvvəlində sosial şəbəkələrdə insanları tullantı yığmağa sövq edən yeni qlobal aksiya elan olunmuşdur. Aksiya istənilən çirkləndirilmiş ictimai yeri tullantılardan təmizləmək və həmin ərazinin»əvvəl və sonra» görüntülərini Facebook və Instagram-da yerləşdirməkdən ibarət idi.

Ətraf mühitin mühafizəsinin təbliği üçün bu cür əlverişli fürsətdən istifadə edərək, IDEA və Azərbaycan Gənclər Fondu ölkəmizdə #Trashtag müsabiqəsinə start vermişdir. Müsabiqə zamanı çoxsaylı fərdi və qruplar tərəfindən təmizlənmiş ərazilərin şəkilləri IDEA-ya təqdim edilmişdir ki, bunlardan 5 qalib seçilərək ən möhtəşəm nəticəyə görə mükafatlandırılmışdır.





## CLOTHING DONATION BINS INSTALLED IN BAKU

As with all other products, the dumping and decomposition of clothes negatively impacts the environment. The damage is caused by toxic substances and gases released into the environment as a result of decaying waste as well as production of new products.

With that in mid, in January of 2019, IDEA started a program to collect used clothing and distribute it among people for reusethrough various charity organizations. So far, clothing donation bins have been installed at four locations in Baku. Each week, hundreds of people eagerly drop off their unneeded clothes,instead of sending them to landfill, thus helping save the environment. More donation units are expected to appear across the capital in the near future.








## PALTAR İANƏ QUTULARI

Digər məhsullar kimi, geyim əşyalarının da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərər ilə bağlıdır.

Təkrar istifadənin ətraf mühitə müsbət təsirini nəzərə alaraq, 2019-cu ilin yanvar ayında IDEA tərəfindən istifadəsiz paltarların toplanması və müxtəlif xeyriyyə təşkilatları vasitəsilə ehtiyacı olan insanlar arasında paylanması üzrə proqrama start verilmişdir. İndiyə kimi, bu cür təkraristifadə qutuları Bakının 4 yerində quraşdırılmışdır. Hər həftə yüzlərlə insan istifadə etmədikləri geyimlərini tullamaq əvəzinə məmnuniyyətlə həmin qutulara yerləşdirir və bununla ətraf mühitin qorunmasına öz töhfəsini verir.  Yaxın vaxtlarda oxşar paltar toplanma qutularının paytaxtın digər yerlərində də quraşdırılması nəzərdə tutulur.



## SEVEN WONDERS OF AZERBAIJAN

On 28 May 2019, IDEA, jointly with Nature and History Production, launched a new television project titled «Seven Wonders of Azerbaijan». The initiative aims to raise awareness on Azerbaijan's national treasures, by engaging the public in the process of choosing and declaring the country's 7 most significant natural and cultural sites.

The website of the project www.yeddi.az was presented and voting was officially started during the launch event, which was broadcast on national TV. The online vote, by which the public could choose their favorite natural and cultural monuments, lasted till 18 October 2019 and determined 25 frontrunners. In the second phase of the selection process, a series of televised discussions devoted to these sites will be held, featuring scientists, historians, researchers and private citizens. The final nationwide vote will be held in May of 2020 and the results will be announced during a live gala event on May 28th- Republic Day.



## AZƏRBAYCANIN 7 MÖCÜZƏSİ

28 may 2019-cu il tarixində IDEA İctimai Birliyi və "Nature and History Production"ın birgə təşkilatçılığı ilə "Azərbaycanın 7 möcüzəsi" televiziya layihəsinə start verilmişdir. Layihənin əsas məqsədi ictimaiyyəti Azərbaycanın yeddi ən möhtəşəm təbii və mədəni abidələrinin seçilməsi və elan edilməsi prosesinə cəlb etməklə ölkəmizin milli sərvətləri haqqında ictimai məlumatlandırma səviyyəsinin artırılmasından ibarətdir.

Milli televiziyada yayımlanan təqdimat mərasimi zamanı layihənin saytı www.yeddi.az təqdim edilmiş və səsvermə rəsmi olaraq başlanmışdır. İnternet vasitəsilə keçirilən səsvermə 18 oktyabr tarixinə kimi davam etmiş və ictimaiyyət tərəfindən ən üstün hesab edilən 25 finalçı abidə artıq müəyyən edilmişdir. Layihənin ikinci mərhələsində alimlərin, tarixçilərin, tədqiqatçıların və adi vətəndaşların iştirakı ilə finala çıxan abidələr haqqında silsilə TV müzakirələr keçiriləcək. 2020-ci ilin may ayının əvvəlində son səsvermə baş tutacaq və 28 May - Respublika Günündə canlı yayımlanan mərasim zamanı "Azərbaycanın 7 möcüzəsi" adına layiq görülən abidələr ictimaiyyətə elan olunacaq.



## BATTERY RECYCLING BINS

Single-use batteries disposed of in a landfill can leach toxic constituents, such as lead, cadmium and lithium, into the environment, contaminating groundwaters and resulting in possible exposure to humans.

In May 2019, IDEA and the State Oil Company of Azerbaijan Republic (SOCAR) started a program on the collection and utilization of used batteries, with the support of the Ministry of Education.In the framework of the pilot program, 20 battery recycling bins were placed in Baku's schools. The collected batteries are regularly delivered to the utilization site of SOCAR. The program will be gradually expanded to cover more local schools and other institutions.








## BATAREYA TOPLAMA QUTULARI

Tullantı poliqonuna atılan birdəfəlik batareyalar qurğuşun, kadmium və litium kimi zəhərli maddələri ətraf mühitə buraxır ki, nəticədə həmin maddələr yeraltı sulara sızaraq insanların sağlamlığına təsir edə bilər.

2019-cu ilin may ayında IDEA və Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi ilə istifadə olunmuş batareyaların toplanması və utilizasiyası üzrə yeni proqrama start verilmişdir. Proqram çərçivəsində 20 ədəd batareya toplama qutusu Bakı şəhəri üzrə orta məktəblərə yerləşdirilib. Yığılan batareyalar mütəmadi olaraq utilizasiya üçün SOCAR-ın poliqonuna göndərilir. Proqram tədricən genişləndiriləcək daha çox məktəb, eləcə də digər təsisatları əhatə edəcək.



## HEALTHY AND RESPONSIBLE FOOD CONSUMPTION

In November of 2018, IDEA launched its series of presentations on healthy and responsible food consumption among schoolchildren. The project is conducted with the support of Azerbaijan Youth Foundation, Ministry of Education and FAO.

Each week, IDEA holds interactive lectures at schools of Baku aimed at encouraging healthy eating habits in children. In the course of presentations, children learn how to be responsible food consumers, how to irresposible consumption affects our planet what, constitutes a healthy diet, how a bad diet impacts growth, and much more.



## SAĞLAM VƏ MƏSULİYYƏTLİ QİDA İSTEHLAKI

2018-ci ilin noyabr ayında IDEA sağlam və məsuliyyətli qida istehlakı üzrə məktəbli uşaqlar üçün təqdimatlar silsiləsinə başlamışdır. Layihə Azərbaycan Gənclər Fondu, Təhsil Nazirliyi və FAO-nun dəstəyi ilə həyata keçirilir.

Hər həftə uşaqlar arasında sağlam qidalanma vərdişlərinin inkişaf etdirilməsi məqsədilə IDEA tərəfindən Bakının orta məktəblərində interaktiv mühazirələr keçirilir. Təqdimatlar zamanı şagirdlər məsuliyyətli istehlakçı olmağın yollarını, məsuliyyətsiz istehlakçılığın planetimizə necə təsir etdiyini, sağlam pəhrizin nə olduğunu, pis qidalanmanın orqanizmin inkişafına necə təsir etdiyini öyrənir və digər faydalı məlumatlar əldə edirlər.



Our utmost responsibility is to be the howling voice of Mother Nature, which houses us and provides us with everything needed for our existence and way of life.

**Leyla Aliyeva,**
National Youth Forum "Agenda 2030: Focus on the Environment",
Baku, 5 June 2018





Ən başlıca borcumuz bizim evimiz olan, mövcudiyyətimiz və həyat tərzimiz üçün bizi bütün nemətlərlə təmin edən Ana Təbiətin həyacanlı səsi olmaqdan ibarətdir.

**Leyla Əliyeva,**
"2030 Gündəliyinin ətraf mühit aspektləri" üzrə Milli Gənclər Forumu,
Bakı, 5 iyun 2018-ci il



## TREE PLANTING AND PROTECTION OF GREENERIES

Trees help us combat climate change, sustain species biodiversity, clean the air we breathe and support our livelihoods. It is estimated that people cut down around 15 billion trees each year for agriculture and other purposes, and that the number of trees worldwide has fallen by 46% since human civilization began. Therefore, we must ensure that more native trees are planted to replace those that have been felled or destroyed. IDEA is proud to have carried out numerous projects aimed at protection and expansion of green spaces in Azerbaijan, as a result of which more than 5 million trees have been planted across the country and hundreds of cases of illegal tree felling have been resolved.



## AĞACƏKMƏ VƏ YAŞILLIQLARIN MÜHAFİZƏSİ

Ağaclar iqlim dəyişikliyinə əks-təsir göstərir, biomüxtəlifliyin qorunmasına şərait yaradır, bizə təmiz hava verir və həyatımızı təmin edir. Hesablamalara görə, hər il insanlar tərəfindən kənd təsərrüfatı və digər məqsədlər üçün təxminən 15 milyard agac kəsilir, ümumiyyətlə isə insan sivilizasiyası yaradılandan etibarən dünyada olan ağacların həcmi 46% azalıb. Buna görə, kəsilmiş və məhv edilmiş agacların əvəzinə daha çox sayda yerli növ ağacların əkilməsi olduqca vacibdir. IDEA Azərbaycanda yaşıllıqların qorunması və genişləndirilməsi üzrə bir çox layihələrə imza atmış, bu təşəbbüslər çərçivəsində ölkə ərazisində 5 milyondan çox ağac əkilmiş və yüzlərlə qanunsuz ağac kəsintisi halları barədə tədbir görülmüşdür.

## “NO TREE CUTTING!” PROGRAM

IDEA Public Union launched its “No tree cutting!” program in 2014 to combat and prevent unlawful cutting and removal of trees and shrubs. The 1113 hotline called “First Aid to the Nature” and a mobile response team has been created, and numerous public awareness-raising and tree-planting campaigns and other activities have been held within the program.

When citizens report cases to IDEA through the 1113 hotline, our response team conducts on-site investigations of the submitted complaints, collects additional information, photo and video materials related to each case, and takes necessary action in cooperation with the Ministry of Ecology and Natural Resources.

The program has so far addressed over 350 complaints on illegal felling of trees, only one-third of which were received during 2017-2019. This shows that the number of complaints received on the 1113 hotline is decreasing, which is an indication that the crackdown on violations works.



## “AĞACLARIN KƏSİLMƏSİNƏ YOX!” PROQRAMI

Qanunsuz ağac və kolların kəsilməsi hallarının qarşısının alınmasına yönəlmiş “Ağacların kəsilməsinə yox!” proqramına 2014-cü ildə start verilmişdir. Proqram çərçivəsində “Təbiətə təcili yardım” adlı 1113 qaynar xətti və mobil qrup yaradılmış, müxtəlif ictimai maarifləndirmə, kütləvi ağacəkmə aksiyaları və digər tədbirlər təşkil edilmidir.

Vətəndaşlar 1113 xəttinə müraciət etdikdə, nümayəndələrimiz tərəfindən əraziyə baxış keçirilir, əlavə məlumat, foto və video materiallar toplanılır və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə müvafiq tədbirlər görülür.

Dörd il ərzində proqram çərçivəsində 350-dən artıq vətəndaş şikayətinə baxılmışdır ki, bunların yalnız 1/3 hissəsi 2017-2019-cu illərə təsadüf edib. Bu isə 1113 qaynar xəttinə daxil olan şikayətlərin azalmasının və qanunsuz ağac kəsilməsi ilə mübarizənin effektivliyinin göstəricisidir.



## TREE PLANTING EVENTS

There is no better way to mark special occasions than by planting trees to help save nature. Over the past three years, IDEA has organized and co-organized dozens of planting events with the help of its young volunteers, public employees and ordinary citizens. Tens of thousands of native trees were planted at various events dedicated to important dates.

Among the most remarkable planting events held in the last 3 years were the mass tree-planting campaigns held on the birthday anniversary of the National Leader of Azerbaijan Heydar Aliyev, tree planting events in Baku's Dendrological Park and on the site of the Balakhani waste polygon on the occasion of Earth Day, and the tree planting ceremony in memory of the victims of the Khojaly Genocide.







## AĞACƏKMƏ AKSİYALARI

Xüsusi günlərin qeyd olunmasının ən gözəl və təbiət üçün faydalı yolu ağacəkmə aksiyalarının keçirilməsidir. Son üç il ərzində IDEA tərəfindən gənc könüllülərimiz, dövlət qulluqçuları və adi vətəndaşların iştirakı ilə onlarla kütləvi ağacəkmə aksiyası təşkil edilmiş və dəstəklənmişdir. Xüsusi günlərə həsr olunmuş müxtəlif tədbirlər zamanı on minlərlə yerli növ ağaclar əkilmişdir.

Son iki ildə ən yadda qalan yaşıllaşdırma aksiyaları kimi ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunmuş silsilə kütləvi ağacəkmə aksiyalarını, Yer Günü münasibətilə Mərdəkan Dendroloji parkı və Balaxanı tullantı poliqonunda keçirilən aksiyaları, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsinə keçirilən təntənəli ağacəkmə mərasimini qeyd etmək olar.



## "SCHOOL GARDENS" PROJECT

Aside from other environmental benefits of trees, they also provide food for humans, birds and wildlife. With a view to expand green spaces in schools as well as promote healthy eating choices and raise environmental awareness among children, IDEA, in partnership with Food and Agriculture Organization of the United Nations (FAO) and the Ministry of Education, started the "School Gardens" project in April 2017.

In line with the initiative, fruit tree planting events with the participation of schoolchildren were organized in five schools in each district of Azerbaijan. The project covered over 300 schools across the country and resulted in the planting of almost 20,000 fruit bearing trees, including apple, pear, sweet cherry, plum, walnut, hazelnut, almond, persimmon and quince, in accordance with each region's climate and soil type.



## "MƏKTƏB BAĞLARI" LAYİHƏSİ

Ağacların ətraf mühitə verdiyi digər töhfələrlə yanaşı, onlar həmçinin insanlar, quşlar və digər canlılar üçün qida mənbəyidir. Məktəblərdə yaşıllıqların artırılması, şagirdlər arasında ekoloji sağlam qidadan istifadənin təşviq edilməsi və onların təbiət haqqında biliklərinin artırılması məqsədilə, 2017-ci ilin aprel ayında IDEA, FAO və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Məktəb bağları" layihəsinə start verilmişdir.

Təşəbbüs çərçivəsində Azərbaycanın hər rayonunun beş orta məktəbində uşaqların iştirakı ilə ağacəkmə aksiyaları təşkil edilmişdir. Layihə ölkə üzrə 300-dən çox məktəbi əhatə etmiş və rayonların iqliminə və torpaq örtüyünə uyğun olaraq 20000-ə yaxın alma, armud, gilas, gavalı, qoz, fındıq, nar, xurma, badam, heyva kimi meyvə ağaclarının əkilməsi ilə nəticələnmişdir.



## “RESTORE THE GREENERIES” PROGRAM

While continuously expanding green spaces through numerous planting events, we also attach great importance to the issue of promptly replacing the illegally felled as well as dead, infected and hazardous trees with many more new ones. “Restore the greeneries” program was started 3 years ago by IDEA, Ministry of Ecology and Natural Resources and Baku City Executive Power.

With the help of countless young IDEA volunteers, thousands of native trees were planted in Baku at locations, where illegal felling cases were reported and resolved. On the other hand, based on citizen’s reports, infected, dying or dead trees were removed, treated or trimmed in order to improve tree health and prevent any accidents.

The majority of complaints on hazardous trees were related to poplar trees, which are considered risky because they are often unable to withstand Baku’s strong winds and collapse, causing harm to people and property. Therefore, these trees are removed and replaced with pine, cypress, olive, ash, medlar, hackberry and other trees, in accordance with soil and climate types of Baku and the Absheron peninsula.



## “YAŞILLIQLARI BƏRPA EDƏK” PROQRAMI

Çoxsaylı ağacəkmə aksiyaları vasitəsilə mövcud yaşıllıqların davamlı şəkildə genişləndirilməsi ilə yanaşı, IDEA qanunsuz olaraq kəsilmiş, qurumuş, xəstə və ya təhlükəli ağacların əvəzinə yeni ağacların əkilməsi məsələsinə də böyük əhəmiyyət verir. 2017-ci ildə başlanmış “Yaşıllıqları bərpa edək” proqramı IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə həyata keçirilir.

IDEA-nın gənc könüllülərinin iştirakı ilə Bakıda qanunsuz kəsilmiş ağacların yerinə minlərlə yerli növ ağac əkilmişdir. Eyni zamanda, vətəndaşların müraciətlərinə əsasən, xəstə, quruyan və təhlükəli ağaclar budanmış və ya tamamilə aradan götürülmüşdür.

Təhlükəli ağaclarla bağlı şikayətlərin böyük əksəriyyəti qovaq ağacı ilə bağlı olmuşdur ki, bu növ çox vaxt Bakının güclü küləklərinə davam gətirmir, aşaraq insanlara və əmlaka zərər vurur. Bu səbəbdən, bu ağaclar kəsilir və onların əvəzinə Abşeron və Bakı şəhərinin torpaq və iqlim şəraitinə uyğun olan şam, sərv, zeytun, göyrüş, əzgil, dağdağan və s. ağaclar əkilir.



## "FRUIT GARDENS" PROJECT

In April 2017, IDEA, the Ministry of Ecology and Natural Resources and Food and Agriculture Organization of the United Nations (FAO) have launched a joint project on establishing fruit gardens for low-income residents of Azerbaijan. The initiative aims to improve the welfare of families in need and help them generate revenue in a sustainable way.

Sizeable land plots in districts of Azerbaijan are allocated as gardens and divided equally among several local low-income families, which will grow and harvest the trees for their own financial benefit. Thousands of fruit-bearing trees, such as hazelnut, pomegranate, apricot, feijoa, persimmon, walnut and apple trees are planted on these land plots with the help of hundreds of young IDEA volunteers.

Fruit gardens have already been established and presented to over 80 families in 25 districts of Azerbaijan: Ismayilli, Shamkir, Aghstafa, Tovuz, Aghdash, Gakh, Lankaran, Beylagan, Sabirabad, Agjabadi, Barda, Imishli, Gazakh, Gabala, Goygol, Lerik, Guba, Balakan, Aghsu, Goychay, Oghuz, Yevlax, Astara, Shabran and Khachmaz. The project is set to continue and cover all districts of the country in subsequent years.



## "MEYVƏ BAĞLARI" LAYİHƏSİ

2017-ci ilin aprel ayında IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və FAO-nun birgə təşkilatçılığı ilə Azərbaycanın aztəminatlı ailələri üçün meyvə bağlarının salınması üzrə layihəyə start verilmişdir. Təşəbbüsün əsas məqsədi ehtiyacı olan ailələrin rifahını yaxşılaşdırmaq, onlar üçün dayanıqlı yolla gəlir əldə etmək imkanı yaratmaqdan ibarətdir.

Azərbaycanın rayonlarında iri torpaq sahələri meyvə bağları kimi ayrılaraq yerli aztəminatlı ailələr arasında bərabər bölünmüş, həmin bağlardan gəlir əldə edilməsi üçün onların istifadəsinə verilmişdir. IDEA könüllülərinin iştirakı ilə bu torpaq sahələrində fındıq, nar, ərik, feyxoa, xurma, qoz və alma kimi minlərlə meyvə ağacı əkilmişdir.

Azərbaycanın 25 rayonu, o cümlədən İsmayıllı, Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə, İmişli, Qazax, Qəbələ, Göygöl, Lerik, Quba, Balakən, Ağsu, Göyçay, Oğuz, Yevlax, Astara, Şabran və Xaçmazdan olan 80-dən çox ailəyə meyvə bağları artıq təqdim edilmişdir. Layihənin davam etdirilməsi və gələcəkdə ölkənin bütün rayonlarını əhatə etməsi nəzərdə tutulur.



## "OUR YARD" PROJECT

In a developed and densely populated city such as Baku, people often forget that they actually dwell in nature. Trees are mainly perceived as merely an aesthetic accessory to an urban setting, while in fact they constitute the bedrock of urban ecology. Being aware of all the environmental, social and health benefits of green public spaces, in December 2017, IDEA launched a project to improve unmaintained outdoor facilities, parks and playgrounds in Baku's neighborhoods.

Based on requests from city residents, IDEA and its partners conduct a needs assessment of the reported locations and begin renovation works, which generally include creating a new children's playground, leisure facilities, sports playgrounds and street workout equipment, as well as refurbishing other surrounding public buildings and areas. Most importantly, many trees and shrubs are planted during opening ceremonies of renovated yards with the help of local residents and IDEA volunteers.

The project is carried out with the support of district executive authorities of Baku. More than 50 yards were renovated in various districts of Baku by the end of 2019. The project is expected to cover all unmaintained yards reported to IDEA by city residents.







## "BİZİM HƏYƏT" LAYİHƏSİ

Bakı kimi inkişaf etmiş və sıx əhalisi olan şəhər şəraitində insanlar çox vaxt təbiətdə olduğunu unudur. Yaşıllıqlar əsasən müasir şəhər landşaftı üçün estetik bir element kimi qəbul edilir, halbuki onlar əslində şəhər ekologiyasının sütununu təşkil edir. Yaşıllıqların ekologiya, sosial həyat və sağlamlıq üçün faydasını nəzərə alaraq, 2017-ci ilin sonunda IDEA tərəfindən Bakının baxımsız həyət, park və meydançalarının bərpası və abadlaşdırılmasına yönəlmiş layihəyə start verilmişdir.

Paytaxt sakinlərinin müraciətlərinə əsasən, IDEA və tərəfdaşları tərəfindən abadlaşdırılmaya ehtiyacı olan həyətlərə baxış keçirilir, onlarla bağlı məlumat və tövsiyələr nəzərdən keçirilir və renovasiya işlərinə başlanılır. Nəticədə həmin ünvanlarda yeni uşaq meydançaları, istirahət zonaları, idman meydançaları və qurğuları quraşdırılır, ətrafdakı binaların fasadları və ehtiyacı olan digər ictimai yerlər təmir edilir. Ən əsası isə, bu həyətlərin açılış mərasimləri zamanı orada sakinlər və IDEA könüllülərinin köməyi ilə çoxsaylı ağac və kollar əkilir.

Layihə Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilir. 2019-cu ilin sonuna kimi Bakının müxtəlif rayonlarında 50-dən çox həyət abadlaşdırılmışdır. Layihə çərçivəsində şəhərin bütün digər abadlaşdırılmaya ehtiyacı olan həyətlərinin yaxşılaşdırılması nəzərdə tutulur.



The misconception that people can take nature and its resources for granted must be overcome. People should know the value of the treasures they hold before losing them completely.

**Leyla Aliyeva,**
"Live Life" exhibition,
Berlin, 14 February 2017





Təbiət və onun ehtiyatlarının tükənməzliyi ilə bağlı insanların yanlış təsəvvürlərinə son qoyulmalıdır. İnsanlar malik olduğu sərvətlərin dəyərini onları tamamilə itirməzdən əvvəl dərk etməlidir.

**Leyla Əliyeva,**
"Live Life" sərgisi,
Berlin, 14 fevral 2017-ci il





## COASTAL CLEANUP EVENTS

Saving the unique biodiversity of the Caspian Sea and other water basins in the Caucasus region is one of IDEA's utmost priorities, and the organization is determined to do its part to address this issue, in cooperation with its local and international partners. Pollution and contamination are having a severely detrimental effect on the health of the marine environment. That is why IDEA holds regular activities aimed at cleaning and restoring the polluted coastal and riverside areas, as well as encouraging the public to support such efforts.



## SAHİLYANI TƏMİZLİK AKSİYALARI

Xəzər dənizinin və Qafqaz regionun digər su hövzələrinin unikal biomüxtəlifliyinin xilası IDEA-nın əsas prioritetləri sırasındadır və təşkilat yerli və xarici tərəfdaşları ilə birlikdə problemin həllinə töhfə verməyə qərarlıdır. İnsan fəaliyyəti ilə bağlı çirklənmə dəniz ətraf mühitinin sağlamlığına həddindən artıq dağıdıcı təsir göstərir. Bu səbəbdən, IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsi və bərpa edilməsi, eləcə də bu səylərin ictimaiyyət tərəfindən dəstəklənməsinə yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

## ANNUAL BEACH CLEANUPS

Each year multiple cleanups are held on the coast of the Caspian Sea - before and after the beach season and during the International Coastal Cleanup Week. During 2017-2019, eight cleanup events were held with the participation of hundreds of our young volunteers, in cooperation with Azerbaijan Youth Foundation, Tamiz Shahar JSC and «CAVAN» Youth Movement Public Union and United Nations Office in Azerbaijan.

The mass events were held at Baku's popular Buzovna, Novkhani and Goradil beaches, and resulted in the collection of over 20 tons of trash, which was taken to the Balakhani Solid Waste Sorting Plant for recycling. More active youth join our events each year to help make our coastal areas cleaner, but more importantly send a strong message to the wider public on the harmful effects of pollution.



## ÇİMƏRLİKLƏRDƏ İLLİK TƏMİZLİK AKSİYALARI

Hər il çimərlik mövsümündən əvvəl və sonra, eləcə də Beynəlxalq Sahil Təmizliyi həftəsi zamanı Xəzər dənizi sahillərində silsilə təmizlik aksiyaları təşkil edilir. 2017-2019-cu illər ərzində IDEA, Azərbaycan Gənclər Fondu, Təmiz Şəhər ASC, «Cavan» Gənclər Hərəkatı İctimai Birliyi və BMT-nin Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı və yüzlərlə gənc könüllünün iştirakı ilə səkkiz çimərlik təmizlənməsi aksiyası keçirilmişdir.

Kütləvi təmizlik aksiyaları Bakının məşhur Buzovna, Novxanı və Görədil çimərliklərində keçirilmiş və 20 tondan artıq tullantının toplanaraq təkrar emal üçün Balaxanı Bərk Məişət Tullantıları Zavoduna göndərilməsi ilə nəticələnmişdir. Hər il daha çox fəal gənclər sahillərimizi daha təmiz etmək üçün bizim aksiyalara qoşularaq ətraf mühitin çirklənməsinin fəsadları haqqında geniş ictimaiyyətə təsirli bir ismarıc göndərir.



## KURA RIVER CLEANUPS

As a habitat and spawning ground for many precious fish species as well as a vital source of freshwater, the Kura basin has been under increasing pressure for many decades, with pollution and gillnets being among major threats to its biodiversity. IDEA continues its efforts to reduce the environmental damage of human activities on Kura, in partnership with the Ministry of Ecology and Natural Resources.

In the past three years, cleanup events were held at the delta of Kura River with the help of young IDEA volunteers. As a result, hundreds of gillnets were removed from the estuary of the Kura River to allow free passage of fish during their spawning period, and tons of waste, predominantly plastic, was collected from riverside areas.



## KÜR ÇAYININ TƏMİZLƏNMƏSİ

Bir çox dəyərli balıq növlərinin təbii arealı və kürütökmə yeri olan Kür çayı uzun illər ərzində mənfi antropogen təsirlərə məruz qalır, çirklənmə və sintetik torlar çayın biomüxtəlifliyini ciddi təhlükə altına qoyur. Bunu nəzərə alaraq, IDEA Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə insan fəaliyyəti nəticəsində Kürə vurulan zərərin aradan qaldırılmasına yönəlmiş səylərini davam etdirir.

Əvvəlki illərdə olduğu kimi, 2017 və 2018-ci illərdə də IDEA-nın gənc könüllülərinin köməyi ilə Kür çayının deltasında təmizlik aksiyaları keçirilmişdir. Sözügedən aksiyalar nəticəsində Kür çayının mənsəb hissəsi və ətraflarından tullantılar təmizlənmiş, o cümlədən yüzlərlə istifadə olunmuş tor toplanmış və balıqların kürütökmə dövründə rahat miqrasiyası üçün şərait yaradılmışdır.



## CLEANUP EVENT IN THE CITY OF GANJA

In November 2017, a resident of Ganja raised the issue of extreme pollution at the Old Ganja archeological complex, located by the Ganja River. The historical site retains ancient remains and many precious art samples belonging to the Middle Age. Within a week, IDEA mobilized 400 young volunteers and organized a cleanup in the area, in partnership with «Cavan» Youth Movement Public Union and with the support of Ganja City Executive Power.

As a result of the cleanup, over 2 tons of waste was removed from the historical site and the riverside areas. IDEA had held similar mass events at the Ganja River in the past, cleaning the polluted riverbanks and working to encourage local communities to help protect the environment for the present and future generations.



## GƏNCƏ ŞƏHƏRİNDƏ TƏMİZLİK AKSİYASI

2017-ci ilin noyabr ayında Gəncə sakini tərəfindən Gəncə çayının yaxınlığında yerləşən "Qədim Gəncə" arxeoloji kompleksinin ərazisində olan ciddi çirklənmə problemi ilə bağlı IDEA-ya müraciət daxil olmuşdur. Sözügedən tarixi abidənin ərazisində orta əsrlərə aid olan mədəni təbəqə və bir çox qiymətli sənət nümunələri mövcuddur. Bir həftə ərzində, «Cavan» Gənclər Hərəkatı İctimai Birliyi və Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi ilə, IDEA tərəfindən 400 könüllü səfərbər edilmiş və ərazidə təmizlik aksiyası təşkil edilmişdir.

Təmizlik aksiyası nəticəsində "Qədim Gəncə" arxeoloji kompleksinin ərazisindən və Gəncə çayının sahilindən 2 tona yaxın tullantı toplanmışdır. Qeyd edilməlidir ki, çirkləndirilmiş çaykənarı ərazilərin təmizlənməsi və yerli əhalinin ətraf mühitin qorunması işinə cəlb edilməsi məqsədilə IDEA tərəfindən əvvəlki illərdə də Gəncə çayı yaxınlığında oxşar aksiyalar keçirilmişdir.



"Dialogue is crucial in translating the global development agenda into action. Constructive conversations on the environment and sustainability pave the way for fruitful partnerships that yield positive results for both people and the planet."

**Leyla Aliyeva,**
Statement at the 4th World Forum on Intercultural Dialogue,
Baku, 6 May 2017





Dialoq qlobal inkişaf gündəliyinin həyata keçirilməsində mühüm rol oynayır. Ətraf mühit və dayanıqlıq üzrə konstruktiv danışıqlardan səmərəli tərəfdaşlıqlar irəli gəlir ki, bu da həm insanlar, həm planet üçün faydalı nəticələrə gətirib çıxarır."

**Leyla Əliyeva,**
4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu,
Bakı, 6 may 2017-ci il



# INNOVATIVE DIALOGUE: FORUMS, CONFERENCES, SPECIAL EVENTS

Since day one, IDEA has persistently been committing efforts to build dialogue and partnerships by organizing and supporting local, regional and international events on themes related to environmental protection and sustainability. Such events provide a platform for people and institutions to share experiences, engage in creative exchange of ideas, review their cooperation and seek other potential synergies that can yield positive results for both nature and people.



# İNNOVATİV DİALOQ: FORUMLAR, KONFRANSLAR, XÜSUSİ TƏDBİRLƏR

Təsis edildiyi gündən etibarən IDEA tərəfindən dialoq və tərəfdaşlıqların qurulmasına yönələn davamlı səylər həyata keçirilmiş, ətraf mühitin mühafizəsi və dayanıqlığa aid olan mövzulara həsr olunan yerli, regional və beynəlxalq tədbirlər təşkil edilmişdir. Bu cür tədbirlər həm insanlar, həm də təsisatlar arasında təcrübə və kreativ ideyaların mübadiləsi, mövcud əməkdaşlığın nəzərdən keçirilməsi, insanlar və təbiət üçün müsbət nəticələr verə bilən yeni tərəfdaşlıq imkanlarının tapılması üçün əlverişli platforma yaradır.

## PARTICIPATION AT THE 4TH WORLD FORUM ON INTERCULTURAL DIALOGUE

The Forum's plenary session on "Intercultural dialogue for food security and community resilience: Essential elements in achieving sustainable development and peace" was held on 6 May 2017, with the participation of IDEA founder and FAO Goodwill Ambassador Leyla Aliyeva, UN High Representative for the Alliance of Civilizations Nassir Abdulaziz Al-Nasser, Minister of Culture and Tourism Abulfas Garayev and FAO Office for Partnership, Advocacy and Capacity Development Director Marcela Villarreal and other guests.

The session featured opening speeches and a panel discussion on the effect of climate change on agriculture, and the importance of intercultural dialogue and knowledge sharing for the future of global food security. During her statement, IDEA founder Leyla Aliyeva stressed the need to advance the use of traditional knowledge in agriculture, as a way to ensure global food security and sustainable development.



## IV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK

6 may 2017-ci il tarixində Bakıda keçirilmiş IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər" mövzusunda plenar sessiya keçirilmişdir. Tədbirdə IDEA-nın təsisçisi və FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva, BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasser, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, FAO-nun tərəfdaşlıq, vəkillik və potensialın inkişafı ofisinin direktoru Marcela Villarreal və digər qonaqlar iştirak etmişdir.

Plenar sessiya zamanı iqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri və qlobal ərzaq təhlükəsizliyinin gələcəyi üçün mədəniyyətlərarası dialoq və bilik mübadiləsinin vacibliyi mövzusuna həsr olunmuş ruhlandırıcı açılış nitqləri söylənmiş və maraqlı panel müzakirəsi keçirilmişdir. Öz çıxışı zamanı təsisçimiz Leyla Əliyeva qlobal ərzaq təhlükəsizliyi və dayanıqlı inkişafın təmin edilməsində vacib rol oynaya biləcək ənənəvi aqrar biliklərinin tətbiq edilməsinin vacibliyini vurğulamışdır.



## INTERNATIONAL ENVIRONMENTAL EXHIBITION: CASPIAN ECOLOGY

Over the past years, IDEA has supported and participated at the annual Azerbaijan International Environmental Exhibition organized by Caspian Event Organisers LLC and also supported by the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan. This is the only environmental exhibition in the Caspian and Caucasus regions, which presents innovations in environmental protection and natural resource management.

Every year, the event brings together exhibitors from dozens of countries, including companies specializing in waste management, eco-friendly products, green energy, landscape design and many other areas. The exhibition aims to attract global attention to environmental projects in Azerbaijan and to establish cooperation between local and international organizations working in the field.



## AZƏRBAYCAN BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİ: CASPIAN ECOLOGY

Son illər ərzində IDEA müntəzəm olaraq Caspian Event Organisers MMC tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə təşkil edilən Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisini dəstəkləmiş və sərgidə iştirak etmişdir. Sərgi ətraf mühitin mühafizəsi və təbii sərvətlərin idarə edilməsi üzrə Xəzər və Qafqaz regionunda keçirilən yeganə bu cür tədbirdir.

Sərgi hər il onlarla ölkədən olan iştirakçıları, o cümlədən tullantıların idarə edilməsi, ekoloji təmiz məhsullar, yaşıl enerji, landşaft dizaynı və digər sahələrdə çalışan şirkətləri bir araya gətirir. Sərginin məqsədi Azərbaycanda ətraf mühit üzrə həyata keçirilən layihələrə beynəlxalq diqqətin cəlb edilməsi, müvafiq yerli və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın təşviq edilməsindən ibarətdir.



## ANNUAL WORLD FOOD DAY CELEBRATION IN AZERBAIJAN

Each year, IDEA and its partners mark World Food Day in Azerbaijan by holding special events to draw global attention to the pressing challenge of hunger and food security, discuss ways to solve it, and reaffirm the common commitment to achieve Zero Hunger.

WFD celebrations were organized in partnership FAO Partnership and Liaison Office in Azerbaijan, Ministry of Ecology and Natural Resources and Ministry of Agriculture. WFD 2017 was held under the theme «Change the future of migration. Invest in food security and rural development». The event focused on the intricate link between migration, food security, sustainable agriculture and rural development. The 2018 celebration was held under the theme "Our Actions are our Future. A Zero Hunger world by 2030 is possible" and stressed the need to strengthen efforts to fulfill food-related SDGs.



## ÜMUMDÜNYA ƏRZAQ GÜNÜNÜN QEYD EDİLMƏSİ

Hər il IDEA, tərəfdaşları ilə birlikdə, qlobal aclıq və ərzaq təhlükəsizliyi ilə bağlı problemlərə dünya ictimaiyyətinin diqqətini cəlb etmək, bu problemlərin həlli yolunu müzakirə etmək və "Sıfır aclıq" məqsədinə nail olmaq əzmini yenidən nümayiş etdirmək məqsədilə Azərbaycanda Ümumdünya Ərzaq Gününü qeyd edir.

Ümumdünya Ərzaq Günü mərasimləri FAO-nun Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi ilə əməkdaşlıqda təşkil edilmişdir. 2017-ci ildə tədbir "Miqrasiyanın gələcəyini dəyişək. Ərzaq təhlükəsizliyinə və kənd yerlərinin inkişafına sərmayə qoyaq" şüarı altında keçirilmiş, miqrasiya, ərzaq təhlükəsizliyi, dayanıqlı kənd təsərrüfatı və kənd yerlərinin dayanıqlı inkişafı məsələləri arasında mürəkkəb əlaqəyə diqqət yetirmişdir. 2018-ci ildə tədbir "Addımlarımız gələcəyimizdir. 2030-cu ilə qədər aclığa son qoymaq mümkündür" şüarı altında keçirilmiş, ərzaq təhlükəsizliyinə aid olan DİM-lərin həyata keçirilməsi üzrə səylərin gücləndirilməsinin əhəmiyyətini vurğulamışdır.



## NATIONAL YOUTH FORUM "AGENDA 2030: FOCUS ON THE ENVIRONMENT"

On 5 June 2018, hundreds of young people attended the National Youth Forum "Agenda 2030: Focus on the Environment" held by IDEA, Ministry of Ecology and Natural Resources, UN Office in Azerbaijan and Azerbaijan Youth Foundation on the occasion of World Environment Day. The event aimed to raise youth awareness on Sustainable Development Goals, especially their environmental dimension, and motivate young people to be drivers of change for a green and sustainable future.

Featuring international and local experts, the forum included three panel discussions on the role of youth in tackling climate change, preserving biodiversity and ensuring energy sustainability. Among the keynote speakers of the forum were IDEA founder Leyla Aliyeva, Minister of Ecology and Natural Resources Mukhtar Babayev and the UN Resident Coordinator a.i. Edward Carwardine, who called on the young people to be active in advancing the Global Goals.








## "2030 GÜNDƏLİYİNİN ƏTRAF MÜHİT ASPEKTLƏRİ" MİLLİ GƏNCLƏR FORUMU

5 iyun 2018-ci il tarixində yüzlərlə gənc Ümumdünya Ətraf Mühit Günü münasibətilə IDEA, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Azərbaycan Nümayəndəliyi və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən "2030 Gündəliyinin ətraf mühit aspektləri" mövzusunda Milli Gənclər Forumunda iştirak etmişdir. Tədbirin əsas məqsədi gənclər arasında Dayanıqlı İnkişaf Məqsədləri (DİM), xüsusən onların ekoloji aspektləri haqqında maarifləndirilmənin artırılması, eləcə də gənclərin dayanıqlı gələcəyin qurulmasında rolunu artırmaqdan ibarətdir.

Yerli və beynəlxalq mütəxəssislərin qatıldığı forum çərçivəsində gənclərin iqlim dəyişikliyi ilə mübarizədə rolu, biomüxtəlifliyin qorunması və davamlı enerjinin təmin edilməsi mövzuları üzrə üç panel müzakirəsi keçirilmişdir. Forumda iştirak edən IDEA-nın təsisçisi Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi əvəzi Edvard Karvardin öz çıxışlarında gəncləri Qlobal Məqsədlərə nail olunmasında fəal olmağa çağırmışlar.



## PARTNERSHIP FOR WILDLIFE RESTORATION IN THE CAUCASUS

On 16 November 2018, a scientific conference on partnership for Wildlife Restoration in the Caucasus was held in the framework of the Caspian Ecology 2018 exhibition. The event brought together ministers of ecology and natural resources of Azerbaijan and Georgia, representatives and experts from academia and conservation organizations, including World Wildlife Fund and IUCN, as well as delegates from Azerbaijan, Russia, Turkey, Germany, the Netherlands, Belarus, and Iran.

Addressing the conference, IDEA founder Leyla Aliyeva stressed the urgent need to expand local, regional and global conservation efforts and, more importantly, to change the unsustainable consumption and production patterns that destroy the planet and threaten our future.

The conference featured panel discussions on regional prospects and current initiatives for wildlife restoration in the Caucasus, wildlife management in Azerbaijan and global conservation experience. IDEA made an extensive presentation of its joint project with the Ministry of Ecology and Natural Resources and WWF Azerbaijan on the restoration of the European bison in Azerbaijan.



## QAFQAZDA VƏHŞİ TƏBİƏTİN BƏRPASI ÜZRƏ ƏMƏKDAŞLIQ

16 noyabr 2018-ci il tarixində "Caspian Ecology" Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisi çərçivəsində "Qafqazda vəhşi təbiətin bərpası üzrə əməkdaşlıq" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Tədbirə Azərbaycan və Gürcüstanın ekologiya və təbii sərvətlər nazirlərini, alimləri, WWF və IUCN kimi vəhşi təbiətin mühafizəsi sahəsində çalışan təşkilatların mütəxəssisləri, eləcə də Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, Niderland, Belarus və İranın nümayəndələri qatılmışlar.

Tədbirdə IDEA-nın təsisçisi Leyla Əliyeva da iştirak etmiş, öz çıxışında yerli, regional və qlobal səviyyədə təbiəti mühafizə səylərinin gücləndirilməsinin, eyni zamanda, planetimizi məhv edən və gələcəyimizi sual altına qoyan qeyri-dayanıqlı istehlak və istehsal modellərinin dəyişdirilməsinin həyati vacibliyini vurğulamışdır.

Konfrans çərçivəsində Qafqazda biomüxtəlifliyin bərpası üzrə perspektivlər və təşəbbüslər, Azərbaycanda vəhşi təbiətin mühafizəsinin idarə olunması  və bu sahədə beynəlxalq təcrübə üzrə panel müzakirələri keçirilmişdir. Tədbir zamanı IDEA tərəfindən Azərbaycanda zubrların reintroduksiyası üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan ilə birgə həyata keçirilən layihə haqqında geniş təqdimat edilmişdir.



## ESTABLISHING COOPERATION WITH UNWTO

Abundant natural resources and diverse geographical landscapes, along with rich cultural heritage and modern infrastructure in Azerbaijan present ample opportunities for the further development of the country as an attractive tourism destination. Such development, however, must be sustainable, so as not to compromise the welfare of future generations.

On 17 June 2019, eager to combine efforts in promoting sustainable tourism and tackling global warming, IDEA founder Leyla Aliyeva and Secretary General of the World Tourism Organization (UNWTO) Zurab Pololikashvili signed a Memorandum of Understanding between UNWTO and IDEA. The partnership envisages implementation of joint activitiesfocusing on biodiversity, climate change, ecotourism, and education and capacity building in Azerbaijan.







## ÜMUMDÜNYA TURİZM TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIĞIN QURULMASI

Azərbaycanın təbii sərvətlərinin bolluğu və rəngarəng landşaftlarının müxtəlifliyi, eləcə də zəngin mədəni irsi və müasir infrastrukturu ölkənin cəlbedici turizm məkanı kimi daha da inkişaf etdirilməsi üçün geniş imkanlar açır. Lakin gələcək nəsillərin rifahına xələl gətirməmək üçün bu inkişafın dayanıqlı olması vacibdir.

Dayanıqlı turizmin təşviqi və qlobal iştiləşmə ilə mübarizə üzrə səyləri birləşdirmək niyyəti ilə, iyunun 17-də IDEA-nın təsisçisi Leyla Əliyeva və BMT-nin Ümumdünya Turizm Təşkilatının (BMT ÜTT) baş katibi Zurab Pololikaşvili iki təşkilat arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıb. Anlaşma Memorandumuna əsasən, tərəflər biomüxtəliflik, iqlim dəyişikliyi, ekoturizm və Azərbaycanda təbiətin mühafizəsi üzrə potensialın artırılması sahələrində birgə tədbirlər həyata keçirəcək.



# STICK WITH US!

WWW.IDEACAMPAIGN.ORG



IDEA

International Dialogue for Environmental Action



# ONE EARTH, ONE FUTURE!

WWW.IDEACAMPAIGN.ORG
IDEACAMPAIGN.ORG
IDEA_CAMPAIGN

info@ideacampaign.org
+(99412) 497 63 16